www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 noyabr 2018-ci il Bazar ertəsi № 252 (7141) Qiyməti 60 qəpik

**Xəbər**

## Saatlıda şok olay: kriminal avtoritet güllələndi

yazısı səh.14-də

**Gündəm**

### "MTN çetesi"nin "sahibkar ovu"nda ilginc detallar



"Mahmudovçular" iş adamını ermənilərlə işbirliyində ittiham edib, sərbəst buraxıblar - təfərrüat...

yazısı səh.5-də

### Paytaxtın xəstəlik mənbəyi olan marşrut avtobusları

yazısı səh.3-də

### Rusiyanın Qarabağ dilemması - Kremlin iki yolu var

yazısı səh.11-də

### Bakıda daha bir mənzil fırıldağı: məşhur futbolçu da dələduzluğun qurbanı oldu

yazısı səh.14-də

### "Türkiyə və Rusiyanın ortaq Qarabağ prosesini Lavrov pozub" - politoloq

yazısı səh.12-də

### İrana qarşı ağırlaşan sanksiyaların 20 günü: Azərbaycana hansı təsirlər var?

yazısı səh.12-də

### Qürbətdə bir-birinə qənim kəsilən azərbaycanlılar - sosioloqdan SOS

yazısı səh.14-də

### Neftin qiyməti düşür: Azərbaycanı və manatı nə gözləyir - iqtisadçı şərhləri

yazısı səh.6-də

### MRT və KT müayinələri orqanizmə zərərsiz deyil - həkim xəbərdarlıq edir

yazısı səh.10-da

### Ekspert: "Ərdoğan Dəmirtaşın qələmini birdəfəlik qıracaq"

yazısı səh.3-də

### Prezidentlərin yemək sirləri barədə bilmədiklərimiz

yazısı səh.15-də

# İŞĞALIN BİTƏCƏYİ GÜN - "AZƏRBAYCAN NÖQTƏNİ O VAXT QOYACAQ!.."

**Analitiklər İrəvan üçün qaçılmaz olan perspektivdən danışdılar:** "Ermənistan oyunu uduzub"; "Bakı yalnız Moskvanın israrı ilə hərbi yola əl atmır..."



yazısı səh.8-də

## Şeyxülislamdan ölkə gündəmini dəyişəcək açıqlamalar: "Abel Məhərrəmovla dostam, o yazılanlar..."

Bütün Qafqazın Şeyxi "Yeni Müsavat"ın müxbirinə hələ heç yerdə demədiyi məsələlərdən danışdı, islam dünyasındakı gündəmi dəyərləndirdi, xatirələrini bölüşdü

yazısı səh.4-də



*Fəzail Ağamalı:*

**"Bu, prezidentə, xalqa və dövlətə xəyanətdir"**

yazısı səh.7-də



*Tofiq Zülfüqarov:*

**"Saakyana qarşı cinayət işi açıb, beynəlxalq axtarışa verməliyik"**

yazısı səh.9-da



**Zamirə Hacıyevanın zəngin kriminal dosyesi**

yazısı səh.5-də



## Ermənistan və Gürcüstan Kürü zəhərləyir - nazirlik

**Kür və Araz transsərhəd çaylarının, həmçinin onların transsərhəd qollarının çirklənmə vəziyyətini öyrənmək məqsədilə noyabr ayında keçirilən növbəti monitorinqin nəticələri açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamentindən Musavat.com-a verilən məlumata görə, noyabr ayının II ongünlüyündə Kür çayında suyun sərfi noyabr ayının I ongünlüyünə nisbətən 37 m3/san artaraq 184 m3/san təşkil edib.

Monitorinqin nəticələrinə əsasən, Gürcüstan və Ermənistan ərazilərindən təmizlənmədən birbaşa su obyektlərinə axıdılan məişət tullantıları və sənaye müəssisələrinin çirkab sularının təsiri nəticəsində Kür çayı Şıxlı-2, Ağstafaçay, Ağstafa su anbarında, Araz çayının Horadiz, Bəhramtəpə və I Şahsevəndə məntəqələrində biogen və spesifik çirkləndiricilərin miqdarının normadan dəfələrlə çox olması müşahidə olunub.

Noyabr ayının II ongünlüyündə aparılan monitorinqlərin fiziki-kimyəvi analiz nəticələrinə görə suyun tərkibindəki fenollar Şıxlı-2 məntəqəsində 2,1, Ağstafaçayda-Qazax şəhərində 2,0, Ağstafa su anbarı Musaköy kəndində 1,7, Araz çayı üzrə Horadizdə, Bəhramtəpədə və I Şahsevəndə 2-2,1, biogen maddələrdən nitritlərin miqdarının isə 1,4-1,8 dəfə yol verilən qatılıq həddini (YVQH) keçib. Suyun oksigen rejimi bütün məntəqələrdə 5,84-6,82 mq/l arasında olmaqla sanitar norma daxilində dəyişib.

## Döyülən direktor gələn həftə işə çıxa bilər

**"Əvvəlki günlərə baxanda Tural müəllimin vəziyyəti yaxşıdır. On görə də güman edirik ki, gələn həftənin ikinci günündən işə çıxa bilər". Bunu Modern.az-a açıqlamasında 175 nömrəli məktəbin aktyor Rza Rzayev tərəfindən döyülən direktoru Tural Mirzəliyevin atası Elmi Mirzəliyev deyib.**

Direktorun atası bildirib ki, oğlunun vəziyyəti düzəlsə də, başgicəllənmə halları var. "Başgicəllənmə və ürəkbulanması tam olaraq dayanmayıb. Kəllə-beyin travması aldığından otaq şəraitində ayaq üstə bir az gəzəndə başı fırlanır. Amma həkimlər də vəziyyətinin yaxşılığa doğru olduğunu söyləyir".

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin məlumatına görə, aktyor Rza Rzayev noyabrın 20-də Nizami Rayon Məhkəməsinin qarşısında aylardır qalmaqal yaşadığı Bakı şəhəri 175 nömrəli məktəbin direktoru Tural Mirzəliyevi döyərək, ona bədən xəsarətləri yetirib. Məktəb direktoru Sabunçu rayon 3 saylı xəstəxanaya yerləşdirilib.

## Hacıqabulda dəhşətli qəza: 8 yaralı

**Hacıqabul rayonunda 8 nəfərin xəsarət alması ilə nəticələnən ağır yol qəzası baş verib. Report-un məlumatına görə, hadisə Bakı-Qazax magistralının 125-ci kilometrliyində, Hacıqabul şəhərinin çıxışında qeydə alınıb.**

07-EG-547 dövlət qeydiyyat nişanlı "Mercedes Vita" markalı avtomobillə 90-DA-004 dövlət qeydiyyat nişanlı maşının toqquşması nəticəsində 6-sı ağır olmaqla 8 nəfər müxtəlif dərəcəli xəsarətlər alıb. Yaralılar 3-ü reanimasiya şöbəsinə olmaqla Şirvan Şəhər Xəstəxanasına yerləşdiriliblər.

Zərərçəkmişlərdən hələ ki, 5-nin adı məlumdur. Bunlar Bakı sakinləri - 1991-ci il təvəllüdlü Köçəliyeva Elnarə Əhməd qızı, 1968-ci il təvəllüdlü Pirişova Rübabə Şahlar qızı, 1981-ci il təvəllüdlü Mikayılova Samirə Hacıbala qızı, 1986-cı il təvəllüdlü Tağızadə Şəhla Firdovsi qız və 1967-ci il təvəllüdlü Həsənova Yaqut İlham qızıdır. Digərlərinin şəxsiyyətləri dəqiqləşdirilir. Faktla bağlı araşdırma aparılır.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# DİM-dən sərt açıqlama: "Heç kimə güzəşt olmayacaq!"

**2019-cu ildə kurikulum sistemi ilə keçiriləcək qəbul imtahanlarının modeli təsdiq olunsa da, abituriyentlər üçün bir sıra məqamlar hələ də qaranlıq qalıb. Həmin məqamlardan biri də IX sinfin yekun qiymətləndirməsində əldə olunan fərqlənmə attestatının XI sinfin buraxılış və ya qəbul imtahanlarında şagirdə hansı üstünlüklər yaradacağıyla bağlıdır.**




Mövzu ilə əlaqədar Dövlət İmtahan Mərkəzindən (DİM) Modern.az-a bildiriblər ki, şagirdin dərs prosesi ilə bağlı hər hansı üstünlüyə sahib olması buraxılış və qəbul imtahanlarında nəzərə alınmır.

Xatırladaq ki, bir müddət əvvəl sağlamlıq imkanları məhdud şəxslərə buraxılış imtahanlarında güzəşt olunacağından bəhs edən xəbər vermişdik. Belə ki, sağlamlıq imkanları məhdud olan buraxılış sinif şagirdləri Nazirlər Kabinetinin qərarı ilə imtahandan azad olunurdular. "2019-cu ildən qəbul qaydalarında edilən dəyişikliyə görə, buraxılış imtahanları ali təhsil müəssisələrinə qəbulun ilkin mərhələsi hesab olunur. Belə olduğu halda, sağlamlıq imkanları məhdud şəxslər ali məktəblərə qəbul olunmaq üçün azad olduqları buraxılış imtahanında iştirak etməyə məcburdurlar. Nəticə olaraq, DİM-in tərtib etdiyi qaydalara görə, hər abituriyent ali və ya orta ixtisas təhsili müəssisələrinə qəbul olunmaq üçün Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında ümumi qaydada iştirak edərək müsabiqədə müvəffəqiyyət qazanmalıdır. Müsabiqə zamanı fərqlənmə attestatı, hər hansı digər uğur və ya bunların tamamilə əksi, şagirdin sağlamlıq imkanları nəzərə alınmır", - deyə DİM-dən bildirilib.



## Britaniyalı general: "Rusiya İŞİD və "əl-Qaidə"dən daha təhlükəlidir

**Britaniya silahlı qüvvələrinin baş qərargah rəisi Mark Karlton Smit hesab edir ki, Rusiya, Britaniya və onun müttəfiqlərinə İŞİD və "əl-Qaidə" terror təşkilatından daha çox təhlükəlidir. O,"The Telegraph" qəzetinə müsahibəsində bildirib ki, ordusunun potensialına görə Rusiya tərəfdən təhlükə həmişə qalmaqdadır.**

Generalın sözlərinə görə, Moskva kibermekan, kosmos və suyun altı da daxil olmaqla yeni mübarizə vasitələri hazırlamaqla Qərbdə sabitliyi pozmağa çalışır. O, həmçinin NATO-nu gücləndirməyə çağırıb və vahid Avropa ordusu yaratmaq ideyasını rədd edib.

Qeyd edək ki, Böyük Britaniya Suriya və İraqda "İslam dövləti" qrupuna qarşı mübarizə aparan beynəlxalq koalisiyaya daxildir. Mark Karlton Smit qeyd edib ki, radikal islamçı qruplar məğlub edildiyindən və bütün əraziləri itirdiklərindən son vaxtlar bu cür qruplar tərəfinfən təhlükə xeyli azalıb.



## "Ermənistan taxıl blokadasına salına bilər" - Kremlin incə mesajı

**"Ermənistan taxıl blokadasına salına bilər". Bu sözləri axar.az-a açıqlamasında politoloq Əhəd Məmmədli deyib. O bildirib ki, bununla Kreml Paşinyan iqtidarına "incə" mesaj vermiş olar.**

"Ermənistanda seçkiyə az qalmış Kreml belə bir addımla İrəvana təzyiq edə bilər. Bu təzyiq Paşinyana xəbərdarlıq, onu seçkilərdə məğlub etdirmək üçün Moskva tərəfindən əməliyyatın başlanılmasına start verilməsi kimi də dəyərləndirilə bilər", - deyə o qeyd edib.

Politoloq bildirib ki, istənilən halda rusların Ermənistanda "beşinci kolon"u yenə də çox güclüdür: "Kremlin "beşinci kolon"un əli ilə Ermənistanda provakasiyalara, sabotajlara əl atmaq imkanları istisna edilməməlidir".

Qeyd edək ki, Cənubi Qafqaz Dəmiryolları QSC 2018-ci ilin 1 dekabrından etibarən müvəqqəti olaraq Qafqaz-Poti-Qafqaz istiqamətində bərə ilə daşımaları dayandıracaq. Eyni zamanda bu ilin yanvarından etibarən Gürcüstandan Ermənistana yerüstü vasitələrlə taxıl daşınması qadağan olunacaq. Maraqlıdır ki, QSC-nin bu addımı növbədənkənar parlament seçkisi və Ermənistan Nəqliyyat Nazirliyi, Cənubi Qafqaz Dəmiryolları QSC və Gürcüstan Dəmiryolları arasında əldə olunan razılaşma ərəfəsinə düşür. Belə ki, bu razılaşmaya əsasən, Poti limanından Ermənistana yük daşımaları üçün nəzərdə tutulan tariflərin 52% endirilməsi nəzərdə tutulmuşdu.

## Bu gün Bakıda 12° isti olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gecə və səhər bəzi yerlərdə çiskinli yağış yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 6-8°, gündüz 9-12° isti təşkil edəcək.**

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz olacaq, cənub-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3 şaxtadan 2°-dək isti, gündüz 8-13° isti təşkil edəcəyi ehtimal olunur. Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında əsasən yağmursuz keçəcəyi, bəzi yerlərdə duman olacaq. Gecə 0-5° şaxta, gündüz 3-8° isti olacağı gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında əsasən yağmursuz keçəcək, səhər ayrı-ayrı yerlərdə duman olacaq. Cənub-qərb küləyi gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 1-6° isti, gündüz 8-13° isti təşkil edəcək. Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz olacaq. Lakin gecə və səhər bəzi şərq rayonlarında yağış yağacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə duman olacaq. Cənub-qərb küləyi gündüz arabir güclənəcək. Gecə 2° şaxtadan 3°-dək isti, gündüz 6-11° isti, dağlarda gecə 4-9° şaxta, gündüz 0-5° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında da hava əsasən yağmursuz keçəcək. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Cənub-qərb küləyi gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 3-8° isti, gündüz 9-13° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında gecə və səhər bəzi yerlərdə yağış yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Gecə 6-8° isti, gündüz 10-12° isti, dağlarda gecə 0-5° isti, gündüz 6-10° isti təşkil edəcək.

YENİ MÜSAVAT
N 252 (7141) 26 noyabr 2018

# Bakının xəstəlik mənbəyi olan marşrut avtobusları

**Bakıda hər il yay və qış aylarına keçidlə avtobuslarla bağlı problemlər yaşanır. Belə ki, yay aylarında kondisioneri qoşmayan avtobus sürücüləri soyuq havalarda isə qızdırıcıdan istifadəyə xəsislik edirlər.**

## Nəqliyyat eksperti: "Gediş haqqı qaldırılsa da, əfsus ki, keyfiyyət olduğu kimi qalır"

Hazırda havaların soyuq keçdiyi ərəfədə məsələ ilə bağlı redaksiyamıza şikayətlər edilir. Sərnişinlər bildirirlər ki, xüsusilə də Bakı ətrafına işləyən avtobuslarda vəziyyət xeyli acınacaqlıdır. Sərnişinlərin sözlərinə görə, sürücülər yalnız şaxtalı havada qızdırıcıdan istifadə edirlər. Bu isə onların xəstələnməsinə səbəb olur. Eyni zamanda qış aylarında avtobuslarda natəmizlik də artır. Bu isə avtobusları xəstəlik mənbəyinə çevirir. Hazırda Bakıda fəaliyyət göstərən yeni və müasir standartlara cavab verən avtobuslarla yanaşı, xeyli sayda köhnə, qapısı, pəncərəsi normal bağlanmayan, dəmir qutunu xatırladan avtobuslar da az deyil. Sürücülər heç zaman iradları qəbul etməyib bildirirlər ki, avtobuslar hər gün xüsusi qaydada təmizlənir. Havalar soyuduğunda isə qızdırıcı sistemlərini işə salacaqlar...



"Yeni Müsavat"a danışan nəqliyyat eksperti İlqar Hüseynov da söylədi ki, qış rejiminə keçidlə bağlı problemlər yaşanır: "Azərbaycanda adətən noyabrın 15-də qış rejiminə keçid olur, istilik sistemləri işə salınır. Lakin bəzən havalar tez soyuyur və qəribə hallar yaranır. İstər mənzillərdə istiliklərlə bağlı, istərsə də ictimai nəqliyyat vasitələrinin istismarı zamanı icra hakimiyyətləri, yerli strukturlar yenə də noyabr ayının 15-ni gözləyirlər. Yaxud, ümumiyyətlə, bu məsələdə biganəlik müşahidə olunur. Nəqliyyat vasitələrində konkret olaraq yay-qış rejiminə keçid məsələləri yoxdur. Bunu, sürücü və şirkət hava şəraitinə uyğun formada tənzimləməlidir. Necə ki, biz şəxsi avtomobillərimizdə istədiyimiz zaman kondisioneri, istilik sistemini qoşuruqsa, ictimai nəqliyyatda da eyni yanaşma olmalıdır. Bunun baş verməməsinin bəzi səbəbləri var. Əvvəla, bilirik ki, istilik sistemləri və yaxud da soyuducu sistemlər işə salınan zaman nəqliyyat vasitəsinin mühərriki əlavə gücə düşür. Bunun nəticəsində bir qədər artıq yanacaq məsrəfi olur. Buna görə də şirkətlərlə sürücülər öz aralarında razılaşırlar ki, bu sistemləri maksimum az işə salsınlar. Nəqliyyatda qiymətləri Tarif Şurası tənzimləyir. Bu qiymətlərlə şirkət razılaşmayıb, özünü iflas kimi elan edə bilər. Yəni burada məhdudiyyət yoxdur ki, sən mütləq bu qiymətlə çalışmalısan".

Ekspert bildirib ki, ictimai nəqliyyatda gediş haqqı qaldırılsa da, keyfiyyət olduğu kimi qalıb: "Qiymətin artmasını müşahidə etdik, lakin keyfiyyətdə fərq yoxdur. Sözsüz ki, buna birbaşa cavabdeh olan qurum da Bakı Nəqliyyat Agentliyidir. Bu agentlik lisenziya verdiyi şirkətlər üzərində, nəzarət işini də qurmalı, şikayətləri doğru-dürüst qiymətləndirməlidir. Dəfələrlə məsələ müzakirələrə çıxarılır. Lakin təəssüf ki, hansısa irəliləyişin nəticəsini görmürük. Nəqliyyat vasitələri ilk növbədə qışa hazırlıq vəziyyətinə gətirilməlidir. Hər bir şirkətin istismarında olan nəqliyyat vasitəsi lazımı hala gətirilib, yaş-qış rejiminə keçidə verilməlidir. Şirkətlər isə bunu etməyib, prosesi başlı-başına buraxır. Xeyli şirkətlər var ki, onlar sərnişin daşıma ilə məşğuldurlar, ancaq özlərinin ayrıca böyük avtoparkları yoxdur ki, nəqliyyat sisteminin yararlı vəziyyətə gətirilməsi ilə məşğul olsunlar. Bu, ciddi problemdir. Sovetlər dönəmində hər bir marşrutun özünün avtoparkı olurdu. Qəzalı vəziyyətdə olan hər hansı bir nəqliyyat vasitəsi dərhal xətdən çıxarılırdı. Yəni bu halların baş verməsini müşahidə etmirik. Problem var, ancaq eyni zamanda nəqliyyat vasitəsi xəttə hərəkət edir. Bütün bunlara nəzarət etməli, şirkətlər qarşısında konkret öhdəliklər qoymaq lazımdır. Cəza mexanizmləri olmalıdır ki, məsələlər aradan qaldırılsın. Vətəndaşlarımızın özləri də ayıq-sayıq olmalı, gərəkən orqanlara şikayət etməlidirlər. Bizdə həm də vətəndaş nəzarətsizliyi yaşanır. Bunun özü də problemlərin genişlənməsinə səbəb olan faktordur. Dünyanın inkişaf etmiş ölkələrində belə bir hal baş verən zaman vətəndaşlar xidmətin keyfiyyətsizliyi ilə bağlı müvafiq qurumları məlumatlandırırlar. Hətta məhkəməyə qədər gedib çıxanları olur. Bizdə isə bu cür hallar müşahidə edilmir".

"Yeni Müsavat"a danışan professor Adil Qeybulla isə bildirdi ki, insanlar əsasən, bayıra çıxan zaman havaya uyğun geyinmədikləri üçün soyuqlayırlar: "İndiki avtobusların kondisionerləri, qızdırıcıları mövcuddur. Hesab edirəm ki, bu gün soyuqdəymə xəstəliklərinin əsasında dayanan faktor, insanların bayıra çıxan zaman havaya uyğun geyinməməsidir. Çünki insan avtobusda müəyyən müddətdə olur. O, bayırda daha çox gəzir. Avtobuslar noyabrın 15-dən qış rejiminə keçməlidirlər. Bununla bağlı sovet dövründə hansısa qayda-qanun yox idi. Çünki sovet dövrünün avtobuslarında indiki kimi şərait mövcud deyildi. Məsələ ictimailəşdirilsə, ictimai müqavimət olarsa, yəqin ki, şirkətlər öz qərarlarında dəyişiklik edərlər".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Türkiyə Avropa ilə ikinci FETÖ problemi yaşaya bilərmi?

## Əhəd Məmmədli: "Ərdoğan Dəmirtaşın qələmini birdəfəlik qıracaq"

**Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) HDP lideri, iki ildir həbsdə olan Səlahəddin Dəmirtaşın azad edilməsi və məhkəmə prosesinin azadlıqda keçirilməsi barədə qərarı Türkiyədə ciddi etiraz doğurub. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Avropa Məhkəməsinin qərarına sərt reaksiya verib.**

Ərdoğan deyib ki, Avropa Məhkəməsinin qərarı Türkiyə hökuməti üçün məcburi deyil, eyni zamanda o, qərarla bağlı əks addımlar atacağını bildirib. Türkiyə rəsmilərinin açıqlamalarından hiss olunur ki, rəsmi Ankara Avropa Məhkəməsinin qərarını yerinə yetirmək fikrində deyil. Ekspertlər qərarın qardaş ölkə ilə Avropa arasında növbəti bir gərginliyə yol açacağını, ikinci FETÖ problemini yarada biləcəyini istisna etmirlər.

Qeyd edək ki, S.Dəmirtaş bu ilin yayında keçirilən prezident seçkilərində həbsxanadan namizəd kimi qatılıb. O və HDP-nin digər həmsədri Figen Yüksəkdağ və partiyanın daha 9 deputatı barədə 2016-cı il noyabrın 4-də "cinayət törətmək məqsədilə təşkilat yaratmaq", "terror təşkilatı üzvü olmaq" və digər bir neçə maddə ilə cinayət işi açılıb və onlar həbs olunub. Ancaq bir müddətdən sonra azad olunan Dəmirtaş 2017-ci ildə yenidən saxlanılıb. Hazırda Ədirnə həbsxanasında saxlanılan Dəmirtaşa qarşı 33 ayrı maddə ilə cinayət işi açılıb və bu ittihamlara əsasən 142 il həbs tələb olunur.

Politoloq Əhəd Məmmədli hesab edir ki, Dəmirtaşla bağlı Avropa Məhkəməsinin qərarında təəccüblü heç nə yoxdur: "Bu gözlənilən qərar idi. PKK terrorçuları Avropa Birliyi məmurlarının çoxdankı dostudurlar. Terror təşkilatına himayə SSRİ dağıldıqdan sonra Avropa Birliyinə keçdi. Avropa İttifaqının paytaxtı Brüsseldə parlament binasının qarşısında çadır qurulur və o çadırın içində təmtəraqlı şəkildə PKK terrorçularının şəkilləri təqdim edilir. Avropanın gerçək sifəti budur. Türkiyə gücləndikcə Almaniya və Fransa kimi ölkələr PKK-dan Türkiyəyə qarşı maşa kimi daha çox istifadə edirlər. Bu yaxınlarda Türkiyənin dini rəhbəri PKK və FETÖ ilə bağlı açıqlama verdi. PKK qurulandan son 30 ildə ən az adam bu il terror təşkilatına üzv olub - cəmi 9 nəfər. 2015-ci ildə bu rəqəm 3000-i keçmişdi. PKK tarixində olmadığı



zərbələr alır və bunu dünya görür. O cümlədən, Avropa terror təşkilatının zəifləməsini görür. Hərbi meydanda ardıcıl zərbələr alan PKK-nı Avropa hüquq meydanında ayaqda saxlamaq istəyir. Bütün bu cəhdlər əbəsdir. Çavuşoğlu Avropa Məhkəməsinin bu qərarını şərh edəndə bildirdi ki onsuz da məhkəmənin bir çox qərarlarını yerinə yetirməyən ölkələr var. Bu, o deməkdir ki, Ankara terrorbaşı Dəmirtaşı azad etmək fikrindən uzaqdır. Ədliyyə nazirinin "protokol qaydası ilə baxarıq" deməsi normaldır. Təbii ki, Ədliyyə Nazirliyi bu məsələyə baxacaq və məsələni olduğu kimi saxlayacaq. PKK-PYD və FETÖ məsələlərində Türkiyənin kifayət qədər problemi var. Demirtaşla yeni hüquqi problemin olması düşünmürəm ki, Ankara üçün dünyanın sonudur. Ankara artıq əvvəlki Ankara deyil ki, Vaşinqton və Brüsselin hər şıltaqlığına tabe olsun. Bu sürəcdə PKK bitməlidir. Türkiyədə demək olar ki, PKK-nın hərbi qanadı məhv edilib. Qalıb Suriya və İraq. Suriyada Menbic əməliyyatı gündəmdədir. Türkiyə Suriyada PKK-nın qolu olan PYD-YPG-ni təmizləməyə israrlıdır. Şimali İraqda kürdlər sıxışdırılıb".

Politoloq onu da qeyd etdi ki, ABŞ-la Avropa hər vəhclə kürdləri ayaqda saxlamaq istəyir: "Demirtaş qərarı da buna hesablanıb. Bu məsələ böyüyə bilməz. Heç kəs bir terrorçuya görə Türkiyə kimi böyük dövlətlə münasibətini pozan deyil. Düşünmürəm ki, Dəmirtaş buraxilsin. Bələdiyyə seçkiləri öncəsi, ümumiyyətlə, bu məsələ gündəmə gələ bilməz. Qəti hökm ona görə yoxdur ki, araşdırmalar davam edir. Türkiyə hüquqi ölkədir. Həm də Ankara Dəmirtaşı siyasi alver predmeti kimi istifadə də edir. Bu da normal bir haldır. Böyük dövlətlər Dəmirtaş, PKK kimi piyadalardan həmişə siyasi alver predmeti kimi istifadə edib. Sizləri inandırıram ki, Dəmirtaşa hökm oxunsa belə, Avropa növbəti bəhanə tapıb terrorçuya haqq qazandıracaqdı. Türkiyə PKK-nı bitirdikcə bu problem gündəmdən düşəcək. Suriya və İraqda PKK məhv ediləndən sonra Dəmirtaşa ömürlük də verilsə, heç kəs üçün bu məsələ əhəmiyyət kəsb etməyəcək. Əslində Dəmirtaş kimilərə Türkiyə dövləti bir şans tanıdı, dağdan düşüb adam kimi sivil metodlarla mübarizə aparsınlar. Dağdan düşdülər, parlamentə daxil oldular, amma niyyətlərindən əl çəkmədilər. Bunun da bədəlini dövlət onlara olmadığı kimi ödətməyə başladı. Əgər Dəmirtaş prezidentliyə namizəd olanda belə azadlığa buraxılmadısa, deməli, adi dövrdə ümumiyyətlə, bu haqda danışmağa dəyməz. Prezident seçkilərində bütün təzyiqlərə rəğmən Dəmirtaşi həbsdə saxlayan dövlət onu yenə də həbsdə saxlamağa qadir olduğunu göstərdi. Əgər indiyə qədər bu terrorçuya hökm oxunmayıbsa, deməli, Ankara belə lazım bilib. Dəmirtaşı girov saxlamaqla Türkiyə Qərbdən PKK məsələsində maksimum dərəcədə nələrsə almaq istəyir. Dəmirtaşa hər an hökm oxuna bilər, sadəcə, Ankara bu anı bizim bilmədiyimiz səbəblərə görə uzadır. Biz hələlik ancaq müxtəlif versiyalar irəli sürə bilərik. Dəmirtaşın həbsi PKK daxilində bu quruma Türkiyənin təsirinin artması kimi də baxıla bilər. Ola bilsin ki, həm də PKK-ya təzyiq rıçaqı kimi Dəmirtaşa hələ Ankara hökm oxumur. Bələdiyyə seçkilərindən sonra Dəmirtaş haqqında qərar verilə bilər. Hesab edirəm ki, Ərdoğan prezident səlahiyyətləri üstünlüklərini tam bərkidəndən sonra Dəmirtaşın qələmini birdəfəlik qıracaq. Daxili müxalifəti də unutmayaq. CHP ilə İyi Partiyası seçkilərdə kürdlərin səsini almaq üçün Dəmirtaş kartından istifadə edib iqtidarın üstünə gedirlər. AKP də bunu nəzərə alır. Türkiyə hüquqi demokratik dövlət olaraq hətta terror başının belə hüquqlarını nəzərə alır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 252 (7141) 26 noyabr 2018

# Şeyxülislamdan ölkə gündəmini dəyişəcək açıqlamalar: “Abel Məhərrəmovla dostam, o yazılanlar...”

## Bütün Qafqazın Şeyxi “Yeni Müsavat”ın müxbirinə hələ heç yerdə deməDİyi məsələlərdən danışdı, islam dünyasındakı gündəmi dəyərləndirdi, xatirələrini bölüşdü

**Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə “Yeni Müsavat” qəzetinə müsahibə verib. Hörmətli Şeyximiz həmin müsahibədə son günlərin gündəm mövzularına dair bütün suallarımızı cavablandırıb. Hətta Şeyx həzrətləri hələ heç yerdə demədiyi bəzi məsələləri də müxbirimizə açıqlayıb. İnanırıq ki, bu müsahibə ölkə ictimaiyyəti üçün son dərəcə maraqlı olacaq.**



***– Müsahibəyə razılıq verdiyiniz üçün təşəkkür edirəm, Şeyxülislam həzrətləri, Sizin şəxsi müşahidəniz bizim üçün çox maraqlıdır. Hazırda dünyada dinlər, xüsusən də müsəlmanlar arasında davam edən ixtilafları aradan qaldırmaq mümkün olacaqmı? Yoxsa elə belə də davam edəcək?***

- Bismillahir rəhmanir rəhim. Hazırda Peyğəmbər əleyhissəlamın mübarək mövlud günləridir. İstərdim sizin qəzetiniz vasitəsilə dünya müsəlmanlarının mövludunu təbrik edəm. Qurani-Kərimdə Allah buyurur ki, “İnnə ərsəlnakə rəhmətən lilaləmin”, yəni Peyğəmbərə xitabən bildirir ki, “Mən səni aləmlərə rəhmət olaraq” göndərmişəm. Aləmlər dedikdə bütün varlıq aləmi nəzərdə tutulur, orda müsəlman da var, xristian da, yəhudi də, buddist də və sair. Peyğəmbər aləmlərə rəhmətdir.

Ümidsiz olan şeytandır. İnsan son nəfəsinə qədər ümidini üzməməlidir. Peyğəmbərdən (s.ə.s) gələn hədislərə baxanda bunu aydın görürük. Biz ümidlə yaşamalıyıq. Düzəlməyəcək deyə yaxşı işlərimizdən əl çəkək düşüncəsi olmamalıdır. Quran bizə bu cür öyrətmir, Peyğəmbərimiz (s.ə.s), imamlar, böyük şəxsiyyətlər bizə bu yolu göstərmir. Ancaq təbii ki, problemlər var. Zənnimcə, əsas çətinliklərdən biri də odur ki, bəzi siyasi xadimlər dini məsələləri öz xeyrinə istifadə edir. Özünü dindar kimi göstərib, din adından çıxış edib dinə olan münasibəti öz xeyrinə istifadə etmək cəhdi var. Ona görə də, bu cür qarşıdurmalar baş verir. Əlbəttə, bütün siyasətçi və ya dövlət rəhbərləri deyil, bəzilərinin səbəbindən bu vəziyyət hətta məzhəblər arasında, xalqlar, millətlər içərisində də qarşıdurmalara gətirir. Müsəlman dünyasında da bu cür vəziyyət var. Mən bunu müşahidə edirəm. Amma bu o demək deyil ki, biz ümidsiz olaq. Mən inanıram ki, bir gün gələcək qardaşlıq, dostluq, ədalət üstün dəyərə çevriləcək.

***- Azərbaycanda, açığı, vəziyyət digər müsəlman ölkələri ilə müqayisədə daha ümidvericidir, ölkəmiz müsbət mənada xeyli irəlidə görünür. Hətta bəziləri bunu yenilik də sayır: müsəlmanların birgə vəhdət namazlarını qılmasını, heç bir münaqişələrin olmamasını və sair. Sizin bu mövzuda ölkəmiz üçün dəyərləndirməniz necədir?***

- Əlbəttə, bizdə vəziyyət yaxşıdır. Azərbaycanda olan dinlər, məzhəblərarası münasibət, xalqımızın qanında olan tolerantlıq, başqa dinlərlə birlikdə yaşamaq qabiliyyəti, başqa din və məzhəblərə, hətta başqa xalqlara münasibət çox yaxşıdır. Biz görürük ki, digər müsəlman ölkələrində məzhəblər arasında münasibət o qədər də yaxşı deyil. Amma bizdə o problem yoxdur. Bizim ölkəmizdə yaşayan həm sünnilər, həm şiələr çox tolerantdır, bir-birinə qarşı qardaş münasibəti bəsləyirlər. Ona görə də bir çox məscidlərimizdə, hansı ki, həmin bölgədə azlıqda sünni və ya şiə varsa, o məscidlərə iki imam təyin edirik - həm sünni, həm də şiə imamlar. Bu bizim həyatımızdır. Eyni zamanda, dövlətin də siyasəti bunu gərəkdirir. Bu vəziyyətin yaranması dövlətin siyasətindən də asılıdır. Dövlət ilk növbədə bu şəraiti yarada bilir. Həm müsəlmanlar, həm də başqa dinlər üçün. Bu da indi dünyada nadir nümunədir. Təsadüfi deyil ki, hazırda dünyada mövcud olan azsaylı dinlərarası, sivilizasiyalar arası dialoq mərkəzlərindən biri də Azərbaycanda yerləşir, Qafqaz Müsəlmanları İdarəsinin nəzdində yaradılıb. Bu mərkəzin həm ölkə daxilində, həm də xaricdə apardığı dini, dialoq təbliğatı və buna olan reaksiyalar göstərir ki, Azərbaycanın tutduğu yol doğru yoldur.

***- Artıq 3 ildən çoxdur ki, qeyd etdiyiniz təşkilatın xətti ilə müxtəlif ölkələrdə - Türkiyə, İran, İspaniya, Finlandiya, Rusiya, Orta Asiya - tolerantlıq mövzusunda beynəlxalq konfranslar keçirilir. Hazırda dünyada etnik və dini-məzhəbi zəmində nifrətin yayıldığı bir zamanda dinlərarası dostluq, qardaşlıq, yaxınlaşma mövzusunda konfranslar, beynəlxalq tədbirlər keçirirsiniz. Dünyada bu təşəbbüsə reaksiya necədir? Həqiqətən, dinlərarası dostluq yaratmaq mümkündürmü?***

- Təbii ki, mümkündür. Bu sahədə çox ciddi nəticələr var. Bu il 3 konfrans keçirmişik. Bunlardan birini Şimali Qafqazda keçirmişik, keçmiş SSRİ ərazisində yaşayan müftilərlə birlikdə. İkinci tədbiri İspaniyada, nəhayət üçüncünü də bu yaxınlarda Almaniyanın Berlin şəhərində keçirmişik. Sonuncu tədbirdən yeni gəlmişəm, hələ də məktublar, reaksiyalar gəlməkdədir. Çox müsbət təsir qoyub, təqdir edirlər. O konfranslarda iştirak edən çox yüksək vəzifəli şəxsiyyətlər, keçmiş prezidentlər, siyasətçilər, demək olar ki, bütün geniş yayılmış dinlərin təmsilçiləri, din xadimlərinin fikirləri yüksək idi. Əksər insanlar bu cür tədbirin təşkilinə təəccüblə baxır, həm də təqdir edirdilər. Hətta Bundestaqın nümayəndəsi çıxışında dedi ki, mənə çox xoş gəlir ki, Azərbaycan bu gün bir multikulturalizm mərkəzinə çevrilmişdir. Bu siyasəti apardığı üçün Azərbaycan dövlət rəhbərliyinə təşəkkürünü bildirdilər. Bu böyük işdir. Bilirsiniz, Azərbaycan çox böyük dövlət deyil. Bu təşəbbüsü ələ almaq, dünyada öz sözünü demək, tolerantlıq təbliğatını aparmaq böyük uğurdur. Bunu davam etdirməliyik. Çünki ölkə prezidenti, İlham Əliyev cənabları bu prosesi başladıb, islam həmrəyliyini insan həmrəyliyinə çevirmək fikrindədir. O istəyir ki, ölkəmiz bütün dinlərin həmrəyliyi mərkəzinə çevrilsin. Bu da insan həmrəyliyinə gətirib çıxarsın. Biz bu tədbirləri həm Avropada, həm Asiyada, həm də Yaxın Şərqdə keçirdik və baxdıq ki, bütün dünyada həmrəylik çağırışlarına ehtiyac var.

***- Yeri gəlmişkən, noyabrın əvvəlində Madriddə keçirdiyiniz tədbirlə bağlı mediada çoxlu sayda yazılar dərc olundu. BDU-nun keçmiş rektoru Abel Məhərrəmovla bağlı, xüsusən də təyyarədə şərab aparılması, bundan başqa, oteldə qalmaqalla bağlı yazılar oldu. Bu yazılara münasibətinizi bilmək istərdik. Orda həqiqətən nə baş vermişdi?***

- Mən açığı bir şey baş verdiyini görməmişəm. Bəzi adamların da Şeyxülislam haqda düşüncələri qəribədir. Mən bu cür səfərlər olanda evdə hazırlaşıram, məlumat verirlər ki, təyyarə hazırdır, uça bilərik. Ondan sonra mən də gəlirəm, təyyarəyə minib yola düşürük. Təyyarədə mənim və digər səfər iştirakçılarının geyimləri, şəxsi əşyaları olan çantalar olur. Bir də bizim heyətdə olan çəkiliş qrupunun avadanlıqları. Amma qəti şəkildə deyirəm ki, belə bir məsələ olmayıb, bu, yalandır. Nəyə görəsə bunu yazırlar, deyirlər. Yəqin ki, düşmənçilik məqsədi ilə edirlər. Axı dövlət var, dövlətin sərhəd, gömrük xidməti var, media var. İspaniya böyük bir dövlətdir, ciddi nəzarət sistemi var. Hətta biz ora gedəndə sərhəddə ayaqqabılarımıza qədər yoxlayırlar. Necə oldu ki, bu qədər yükü oradan keçirdilər? Bütün bunlar necə ola bilər? Elə başa düşürəm ki, bütün bunlar quraşdırmadır. Təyyarənin gecikməsi normal hadisədir, çarter reyslər də bir qayda olaraq yubanır. Mən o zaman soruşmuram ki, təyyarə niyə ləngiyir? Digər tərəfdən, mən nə Abel müəllimin, nə də heyətdə olan digər şəxslərin içki içdiyini görməmişəm. Tədbirimiz yüksək səviyyəli bir konfrans idi. 260 nəfərdən çox nüfuzlu qonaq vardı. Orda mən də, Siyavuş müəllim də, Abel müəllim də çıxış etdi. Axırda da prezident həzrətlərinin məktubu oxundu. Burda bəzi şeylər yazırlar, mən Bakıya gələndən sonra oxudum. Guya məni nömrədən çıxarıb dəvət ediblər. Belə şey olmayıb. Oteldə qalarkən nümayəndə heyətinin üzvləri adətən otelin foyesində oturub çay içirdilər. Bir dəfə məni də dəvət etdilər, oturub çay içdik. Səhəri gün nümayəndə heyəti ilə birlikdə Əli bəyin evində qonaq olduq, səmimi şəraitdə söhbətlər oldu, orada Abel Məhərrəmov da, Siyavuş Novruzov da gözəl çıxışlar etdilər, beynəlxalq konfransın yüksək səviyyədə təşkilində roluna görə Əli bəyi təbrik etdilər. Çox gözəl münasibət oldu. Heç bir başqa söhbət olmayıb. Ölkəmizin İspaniyadakı səfiri - Abel müəllimin oğlu Anar Məhərrəmov da orada bizimlə birgə idi. Anar müəllim bizim ötən illərdə İspaniyada keçirdiyimiz konfranslarda da iştirak edib. Mən keçən il İspaniyada konfransdan sonra Bakıya qayıdanda prezident cənabları ilə görüşümüz oldu və mən orda səfirimizin müsbət fəaliyyətini, gördüyü işləri qeyd elədim. Prezident bundan məmnun qaldı. Biz Abel müəllimlə illərlə dostluq, münasibətimiz olub. Ona böyük hörmətim var. Uzun illər İlahiyyat Fakültəsində imtahan komissiyasının sədri olmuşam, universitetdə dərs demişəm, professor olmuşam, birgə tədbirlər keçirmişik. O işdən azad ediləndə mən burda olmamışam, qayıdandan sonra telefon açmışam. Ancaq hələlik danışa bilməmişik, mümkündür ki, xəbərsiz olub.

O ki qaldı Abel müəllimin rektorluqdan azad edilməsinə, bu, prezident cənablarının müstəsna səlahiyyətidir. Heç kimin bu işə qarışmağa ixtiyarı yoxdur. Prezident kimə görəsə kimisə işdən azad etmir. Bu gün işdən azad edib, bəlkə gələcəkdə başqa yerdə lazım olacaq? Bu işə Abel müəllimin oğlunu, qardaşlarını qarışdırmaq, mən elə bilirəm ki, çox böyük haqsızlıqdır.

***- Şəxsi münasibətləriniz necədir? Bu tədbirdən sonra Abel Məhərrəmov, ya da Siyavuş Novruzovla aranızda soyuqluq yaranmayıb?***

- Yox, heç bir soyuqluqdan söhbət gedə bilməz. Mən onunla bu gün də dostam. Mən onun oğluna oğlum kimi baxıram, nəvəsinə nəvəm kimi. O da mənə qarşı elədir. Bizim aramızda heç bir problem yoxdur. Siyavuşu da oğlumdan, qardaşımdan ayırmıram. Vaxtilə onun nikahını da mən kəsmişəm. Bir böyük, ağsaqqal olaraq özümə hər zaman ondan yalnız ehtiram görmüşəm.



***- Bundan əvvəl isə Çexiyada mülklərinizin olması ilə bağlı mətbuatda və sosial şəbəkələrdə məlumatlar yayıldı. Hətta bəzi alqı-satqı sənədlərinin surətləri də internetə düşdü. Bu məlumatlar nə qədər həqiqətə uyğundur? Çexiyada ev və ya əmlakınız varmı?***

- Tamamilə yalan məlumatdır. Mənim orda heç bir şeyim yoxdur. Mən artıq uzun illərdir ki, Karlovı Varıda müalicə alıram. Orada həkimlərim var, hər il məni müalicə edirlər. Hər dəfə müalicəyə gedəndə orada namaz qılmağa yer tapmaq problem olurdu. Odur ki, ibadət, namazlarım üçün münasib yer axtarırdım. Adını çəkmək istəmədiyim azərbaycanlı iş adamları var, din xadimi olaraq ehtiram göstərib orda namaz qılmaq üçün mənə bir yer aldılar. İki maşınlıq qarajının üstündə yerləşən 23-24 kvadratlıq yeri alıb orada otaq, mətbəx və dəstəmazxana düzəltdirib vermişdilər mənə. Orda Quranım, namaz səccadəm vardı. Bir də yerli yeməkləri yeyə bilmirdim deyə, orada ayrıca yemək hazırlayırdıq. Allah rizası üçün bu savab işi etmişdilər. Məlum şayiələr yayıldıqdan sonra mən o yerdən imtina etdim, sahiblərinə qaytardım. Məqsədli şəkildə xəbərlər yayırlar ki, guya orada mənim böyük əmlaklarım var. Belə şayiələri qəsdən şişirdirlər. Bütün bunlar dövlətçiliyimiz adına, dini lider olaraq şəxsimə qarşı düşmənçilik məqsədlidir. Amma narahat deyiləm, haqqı qoruyan Allahdır.

***- Beşmərtəbə bina da göstərilirdi ki, sizə məxsusdur.***

*(ardı var)*

**❑ Kənan RÖVŞƏNOĞLU,**
**“Yeni Müsavat” qəzeti**

# "MTN çetesi"nin "sahibkar ovu"nda ilginc detallar

## "Mahmudovçular" iş adamını ermənilərlə işbirliyində ittiham edib, sərbəst buraxıblar - təfərrüat...

**Bakı Apelyasiya Məhkəməsində "MTN işi" üzrə təqsirləndirilən 7 nəfərlik qrupun şikayətinə baxılır. Prosesdə elə məqamlar üzə çıxır ki, araşdırılmadan üzərindən sükutla keçilir. Halbuki üzə çıxan məlumatlar olduqca ilgincdir.**

Məsələn, Bakı Apelyasiya Məhkəməsində həbsdə olan sabiq MTN generalları - ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəisi Sübahir Qurbanov, Monitorinq Mərkəzinin rəhbəri Teymur Quliyev, Əməliyyat-Texniki İdarənin rəisi Natəvan Mürvətova və onların tabeliyində işləmiş 7 nəfərin işi üzrə son prosesdə azərbaycanlı iş adamının Türkiyədən Ermənistana mal yollaması, pul qazanması epizodu haqda danışılıb.

Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəis müavini olmuş Füzuli Əliyevin vəkili İqbal Həsənov zərərçəkmiş, "Arazplast" MMC-nin rəhbəri Elman Muradovun qanunsuz saxlanması, MTN əməkdaşları tərəfindən döyülməsi, ofisdəki seyfdən götürülmüş 80 min manatının qaytarılmaması barədə ittihamda yazılanlarla razı olmadığını deyib. Bildirib ki, zərərçəkənin şikayəti əsassızdır. Müdafiəçinin sözlərinə görə, zərərçəkmişin erməni iş adamı ilə münasibətləri barədə MTN-də informasiya olub. Ona görə axtarış aparılıb və bu zaman Türkiyədən Ermənistana mal daşınması barədə qaimələr tapılıb. Həmin vaxt seyfdən 80 min götürülməsi isə yalandır, çünki orada heç həmin məbləğ olmayıb. Vəkil qeyd edib ki, hələ axtarışdan əvvəl MTN-ə daxil olmuş məlumatlarla əlaqədar E.Muradovun ölkədən çıxışına qadağa qoyulub, şirkətlə bağlı araşdırmalar üçünsə nazir Eldar Mahmudov Vergilər Nazirliyinə məktub göndərilib: "Bu, Eldar Mahmudovun nazir olduğu dövrdə, qüdrətli vaxtlarında ondan şikayət etmişdi".



Maraqlıdır ki, Elman Muradov bu gün azadlıqdadır. Əgər onun Ermənistanla əlaqələrini təsbit edən sənədlər ortada olubsa, onu necə sərbəst buraxıblar?

Pul qarşılığındamı? Və ya başqa səbəbmi olub? Məhkəmələrdə belə məqamların üzərindən sükutla, araşdırma aparmadan keçirlər. Səbəb nədir, bilinmir...

Ümumiyyətlə isə vəkillər iddia edir ki, "MTN işi" üzrə məhkəmə prosesləri qanunların tələb etdiyi qaydalara tam əməl edilmədən aparılır. Tərəflərin iddia, ittihamları da araşdırılmır.

Elə sonuncu prosesdə F.Əliyevin vəkili deyib ki, zərərçəkmişlərin bir neçəsi qərəzli şəkildə, qisas almaq üçün həqiqətə uyğun olmayan ifadələr verirlər. Bəzilərini isə heç nədən xəbərləri olmadan çağırıb ərizələrə qol çəkdiriblər. Sonra da həmin ərizələrdən ittiham tərəfi istifadə edib. Vəkillər bildirib ki, cinayət işinin materialları arasında təqsirləndirilən şəxslərin bir neçəsinin ifadələri, ekspertiza rəyləri yoxdur. Məhkəmə də belə vacib materiallar olmadığı halda hökm çıxarıb. Apelyasiya Məhkəməsi də sorğu göndərərək onları almaqdan imtina edib. Vəkil İ.Həsənov isə bildirib ki, təqsirləndirilən şəxslər Sübahir Qurbanova, Füzuli Əliyevə, Natiq Alıyevə və Zaur Məmmədova "Maqnit" mağazalar şəbəkəsinin sahibi Seymur Abdullayevdən hədə-qorxu ilə 250 min manat pul almaları barədə ittiham verilib. Lakin belə hadisə olmayıb. Vəkilin dediyinə görə, heç S.Abdullayev "Maqnit"in sahibi də deyil, özü birinci instansiya məhkəməsində dindiriləndə belə ifadə verib.

Xatırladaq ki, 2015-ci il oktyabrın 17-də MTN-də keçirilən əməliyyat nəticəsində nazir Eldar Mahmudov vəzifəsindən azad olunub, nazirliyin 5 generalı Akif Çovdarov, Natəvan Mürvətova, Sübahir Qurbanov, Teymur Quliyev və Elçin Quliyev, daha 16 nəfər müxtəlif rütbəli əməkdaşı saxlanılıb. Onlardan yalnız Natəvan Mürvətova ev dustaqlığında olub. MTN-in Antiterror Mərkəzinin rəis müavini, polkovnik İlqar Əliyev isə həbsindən 2 ay sonra Bakı İstintaq Təcridxanasında(BİT) intihar edib. Həbs olunan şəxslərin işi bir neçə qrupa ayrılıb. MTN-in Monitorinq İdarəsinin rəisi Teymur Quliyev, Əməliyyat Texniki İdarənin rəisi Natəvan Mürvətova və Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin rəisi Sübahir Qurbanov 7 nəfər əməkdaşları ilə birlikdə məhkəmə qarşısına çıxarılıb. Müxtəlif iş adamlarının əmlaklarını, pullarını hədə-qorxu ilə əllərindən almaqda, onları bu məqsədlə qanunsuz olaraq, MTN-ə gətirib orada saxlamaqda, qanunsuz telefon dinləmələrində, əməliyyatlara ayrılmış vəsaitləri mənimsəməkdə təqsirləndirilən Sübahir Qurbanov və müavini Füzuli Əliyevə 14 il, Teymur Quliyevə 12 il, Zaur Məmmədov və Natiq Alıyevə 10 il 6 ay, Anar Şirəliyev və Eşqin Əliyevə isə 3 il azadlıqdan məhrumetmə cəzası verilib. Anar Şirəliyev və Eşqin Əliyevin cəzası başa çatıb və onlar buraxılıblar. Natəvan Mirvətova, Fərhad Atayev və Elşad Əzizova isə şərti cəza verilib. Növbəti proses noyabrın 29-da keçiriləcək.

**❑ E. HÜSEYNOV,**
**"Yeni Müsavat"**

# Zamirə Hacıyevanın zəngin kriminal dosyesi

## Cahangir Hacıyevin xanımının adı "Qara Kəmər", "Beynəlxalq bank" və "MTN işi"nə necə qarışıb?

**Beynəlxalq Bankın həbsdəki sabiq sədri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyeva girov müqabilində azadlığa buraxıldıqdan sonra hazırda London polisinin nəzarəti altındadır. Britaniya mediasının da "ulduzu"na çevrilən bu qadının adı zaman-zaman qalmaqallarda, cinayət dosyelərində çəkilib.**

Öncə qeyd edək ki, Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyevin həyat yoldaşı olan 55 yaşlı Z.Hacıyeva Britaniyada İzahedilməyən Sərvət Sərəncamı (UWO) çərçivəsində aparılan araşdırmalara cəlb olunub. O, 10 il ərzində Londonun məşhur dükanı "Harrods"da 21 milyon dollar xərcləməklə Britaniya hüquq-mühafizə orqanlarının diqqət mərkəzinə düşüb. Britaniyada məhkəmə ondan bu qədər pulu haradan aldığını açıqlamasını tələb edib. Xanım Hacıyeva saxlanılıb və sonradan yarım milyon dollar qarşılığında ev dustaqlığına buraxılıb. Bundan əlavə məhkəmə işlərindən məlum olub ki, 2013-cü ildə Zamirə Hacıyevanın nəzarət etdiyi başqa bir şirkət Berkshire qraflığında, Ascot kəndinin yaxınlığında təmtəraqlı qolf kursu və əmlakını - "Mill Ride Golf Club"u almaq üçün 10 milyon funt (13.15 milyon dollar) xərcləyib. Rəsmi məlumatlar cütlüyün "Harrods"ın avtomobil parkında iki xüsusi yerə sahib olduqlarını və Zamirə Hacıyevanın 42 milyon funta (55.24 milyon dollar) "Gulfstream G550 jet" təyyarəsini aldığını da ortaya çıxarıb. Böyük Britaniya tarixində ilk "İzahedilməmiş Sərvət Sərəncamı"nın şərtlərinə əsasən, Z.Hacıyeva, əri Cahangir Hacıyev ilə birgə Milli Cinayət Agentliyinə hesabat verməlidir ki, Londonun bahalı Knightsbridge bölgəsində böyük bir evi hansı maliyyə hesabına alıblar.

Britaniyada bu araşdırmalardan 1 il əvvəl, 2017-ci ildə Azərbaycanının hüquq mühafizə orqanları Z.Hacıyeva barəsində həbsli axtarış elan ediblər. "Beynəlxalq bank işi" çərçivəsində aparılan araşdırmalarla istintaqçılar belə bir qərarın verilməsi üçün məhkəməyə üz tutublar. İttihama görə, Z.Hacıyeva Beynəlxalq Bankın xəzinəsindən qanunsuz olaraq özünün pul kartı vasitəsilə 2009-cu ildən bu yana 18 milyon manatdan artıq pul xərcləyib.

Azərbaycan hüquq mühafizə orqanlarının axtardığı Z.Hacıyeva sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun qudasıdır. "MTN işi" ilə bağlı da onun adı mətbuatın gündəmində olub. Z.Hacıyeva Beynəlxalq Bankın sıradan müştərilərindən biri olsaydı, barəsində cinayət işinin başlanması haqda xəbərlər ötən illərdə mətbuat səhifələrinə çıxmazdı...

Xanım Hacıyevanın adı ilk dəfə mətbuatın gündəminə 2005-ci ilin fevral-mart aylarında "ayaq" açıb. Həmin vaxt Z.Hacıyeva Bakıda fəaliyyətdə olan adam oğurlayan dəstə tərəfindən oğurlanmışdı. 2005-ci il martın 10-da Milli Təhlükəsizlik Nazirliyi (2016-cı ildə ləğv edilib) Bakının Keşlə qəsəbəsində "Qara kəmər" adlı əməliyyat keçirdi və bankirin həyat yoldaşını girovluqdan azad etdi. Əməliyyat illərlə bağlı qalan sifarişli qətllərin, adam oğurluqlarının bir qisminin də üzərinə işıq saldı. Bundan sonrakı 10 il ərzində E.Mahmudov istədiyini edə bildi. Sanki "Qara kəmər" onun qarantiyasına çevrilmişdi. Bu əməliyyat həm də Eldar Mahmudovun ailəsi üçün də "düşərli" olmuşdu. Sabiq nazirin birinci həyat yoldaşından olan oğlu ilə Zamirə Hacıyevanın ilk evliliyindən olan qızı ailə həyatı qurmuşdular. "Qara kəmər"dən sonra Z.Hacıyeva da, onu oğurlayan bandanın başçısı Hacı Məmmədov da Eldar Mahmudovun əhatəsindən kənarda qalmadılar. Hacı Məmmədov Eldar Mahmudov nazir olduğu illər ərzində cəzaçəkmə müəssisəsinə köçürülmədi, 10 il MTN təcridxanasında saxlanıldı. Mahmudov işdən, bunun ardınca H.Məmmədov MTN-in təcridxanasından çıxandan sonra intihar etdi...

İndi Zamirə Hacıyeva da xoş günlərini yaşamır.

Zamirə Hacıyevanın oğurlanması epizodu ittiham aktına görə belə olmuşdu. C.Hacıyevin həyat yoldaşı Bakıda bahalı salonlardan birinə gedib, oradan çıxanda Hacı Məmmədovun dəstə üzvləri onu oğurlayıblar və maşının yük yerində H.Məmmədovun ikinci xanımı Nailə Quliyevanın Keşlədə yerləşən mənzilinə gətiriblər. Hacı Məmmədov Zamirə Hacıyevanın oğurlanması haqda demişdi: "Bu, hansısa böyük qüvvənin sifarişi olub. Bu sifarişçinin kim olduğunu Cahangir elə ilk gündən bilirdi".




2006-cı il avqustun 29-da məhkəmə prosesi zamanı Hacı Məmmədov adam oğurluğu və qətllərlə bağlı sifarişlərin "qəfil və əvvəlcədən bilinən sifarişlər" olduğunu, Zamirə Hacıyevanın oğurlanmasının isə birinciyə aid olduğunu söyləmişdi. Hacı Məmmədov məhkəməsində Z.Hacıyevanın oğurlanması epizodu üzrə verdiyi ifadələrdə olduqca ilginc 2 məqama toxunmuşdu. Demişdi ki, Z.Hacıyevanı uzun müddət saxlamaq fikrində olmayıblar. Amma özlərindən asılı olmayan səbəblərdən qadını 1 ay həbsdə saxlayıblar. Z.Hacıyeva 2005-ci ilin qadınlar bayramını - martın 8-ni H.Məmmədovun Keşlə qəsəbəsindəki evindəki xüsusi saxlanc yerində girovluqda qarşılayıb. Həmin gün Hacı Məmmədov ona 1 vəzifəli şəxsin adından gül bağışlayıb...

**❑ E. HÜSEYNOV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 252 (7141) 26 noyabr 2018



# Sabahın xeyir, Makron!

Samir SARI

**Dünyada əsasən iki əmtəənin qiyməti qaldırılanda xalq həyəcanlanır. Onlardan biri çörəkdir, biri də yanacaq.**

Hətta artıq çörəyin qiymətinə görə həyəcanlanma əvvəlki dövrlərdə olduğundan daha zəifdir. Ona görə ki, əvvəla, çörək bol və ucuzdur, ikincisi isə dietoloqlar gün axşamacan çörəyə qarşı təbliğat aparırlar, ziyanından danışırlar, camaat da çalışır ki, bu ziyanlı neməti az yesin.

Əlbəttə, bu trendin bizim kimi çox çörək yeyən ölkələrin əhalisinə dəxli yoxdur. Biz uzun zamanlar sırf çörəyin (bir də ət və ağartının) hesabına mövcudluğunu qoruyub saxlamış, çörəyi müqəddəs hesab edən camaatıq, hələ avropalılar kimi çörəyə şıllaq atacaq qədər harınlamamışıq. Ümumiyyətlə, kasıb ölkələrdə çörəyin yeri başqadır. Bilirik ki, "çörək olsa, mahnı da olar", "çörək bol olarsa, basılmaz vətən" və sair və ilaxır.

Bu üzdən kasıb ölkələrdə çörəyin qiyməti kəskin artırılsa, həmin ölkənin paytaxtını Parisə döndərərlər - yəni dünənki Parisə.

Ancaq yanacaq elə andırdır ki, onun bahalaşmasına münasibət Fransada da eyni cür kəskin olur, Qvineya-Bisauda da.

Ona görə belə olur ki, yanacaq bahalaşanda ölkədə nə varsa, hamısı bahalaşır. Hamının əlinə öz əmtəəsini bahalaşdırmaq üçün əla bəhanə düşür. Məsələn, göysatan xala həyətində becərdiyi göyün bir dəstəsinin qiymətini azı 50 faiz artırır, soruşanda da deyir ki, bəs yanacaq bahalaşıb, ona görə mən də belə eləmişəm. Deyirsən, xala, axı sən bu vəzərini, keşnişi benzinlə sulamırsan axı. Xala cavab verir: "Bəs onu bazara nəylə gətirirəm? Maşınla. Maşın nəylə işləyir? Benzinlə. Benzin də bahalaşıb. Gedişhaqqı da artıb. Deməli..." Məntiq var. Hər şey də beləcə.

Bu üzdən Fransanın paytaxtı Parisdə baş verən kütləvi etiraz aksiyaları və iğtişaşlar boşuna deyil. Səbəbi var. Xalq qorxur ki, yanacağın bahalaşması səbəbindən ölkədə gözə görünən nə varsa, hamısı bahalaşacaq, bircə maaşlar artmayacaq, dünən, məsələn, 2-3 min avroyla bir ay yaşaya bilən adamlar artıq aydan-aya pul çatdıra bilməyəcəklər.

Biz oturmuşuq 39-42-ci paralellərdə, elə bilirik ki, fransız xalqı kef eləyir, amma gördüyümüz kimi, elə deyil. Fransız xalqı nə qədər kefkom camaat olsa da, bizim kimi ölənəcən ev tikməsə də, 35-40 il boyunca övlad böyüdüb, ona ev-eşik qurmaq, iş tapmaq dərdi çəkməsə də, hər halda istəyir ki, beş günlük dünyada bir-iki gün rahat yaşasın, bankda hesabı, xərcləməyə pulu olsun.

Dünənəcən bizdə fransızlar barədə küçədə rəy sorğusu aparılsaydı, respondentlərin ikisindən biri deyərdi: "Fransızlar? Belə də... Petux şeylərdir... Yeyib-içib gəzirlər. Ailə yox, uşaq yox".

(O başqa söhbətdir ki, bizdə belə bir yanlış rəy var: fransızlar (eləcə də o biri köklü Avropa xalqları) uşaq əkib-doğub böyütmürlər. Adama deyərlər, elədirsə, bəs bu uşaq bağçalarında, məktəblərdə ora-bura qaçan uşaqlar kimlərdir, inqubator cücələridir?).

Ancaq polisin, təzyiqli suyun qabağında kişi kimi dayananların videosuna baxanda hiss edirsən ki, yox, fransızlar heç də deyildiyi kimi, qlamur kişilərdən deyillər, yeri gələndə ayağa qalxır, küçəyə çıxır, mərdi-mərdanə etiraz bildirirlər.

Bu, onların canında var. 229 il əvvəl də fransızlar bu cür ayağa qalxıb kralı devirmiş, bütün dünyaya elan etmişdilər ki, kral, türkün sözü, kötüdür. O vaxt kralın devrilməsinin səbəbi çörək qıtlığı, kasıblıq, aclıq idi.

İndi fransızların Makrona qarşı bu cür şiddətlə etiraz etməsinin səbəbi heç də toxluq deyil, yenə kasıbçılıqdan əndişədir.

Hələ məsələnin bir başqa tərəfi də var: dünyada yanacağın qiyməti düşdüyü bir vaxtda Makron niyə yanacağı bahalaşdırır ki, camaat da üstünə qabarır?

Söz yox, bunların hamısı Amerikanın oyunlarıdır. Bu dəfə zarafat yoxdur, doğrudan da elədir. Sanki dünyanın neft çəni ABŞ-ın əlindədir, xoşuna gələndə bahalaşdırır, lazımı olanda ucuzlaşdırır, nəticədə dövlətlər, millətlər, insanlar bir-biri ilə üz-göz olurlar.

Belə olur ki, Makron camaatın içinə çıxanda biri "Sabahın xeyir, Makron" deyir, o biri də qışqırır ki, Makron yaxşı adam deyil.



# Neftin qiyməti düşür: Azərbaycanı və manatı nə gözləyir?

## İqtisadçı çıxış yolu göstərir

**Dünya bazarında neftin qiyməti ucuzlaşmaqda davam edir. İqtisadçılar hesab edirlər ki, dünyada baş verən siyasi proseslərin fonunda neftin qiyməti bir qədər də ucuzlaşa bilər. Onların fikrincə, neftin qiymətinin ucuzlaşmasının başlıca səbəblərindən biri bazarda təklifin artmasıdır.**

Bu hal isə neft istehsalçısı olan ölkələri düşünməyə vadar edir. Bəzi iqtisadçılara görə, belə bir məqam Azərbaycan üçün də yaxşı hal vəd etmir. Bu baxımdan iqtisadçılar hesab edirlər ki, Azərbaycan büdcədə neftin qiymətini 40 dollardan götürməlidir.

Əvvəlcə onu qeyd edək ki, istirahət günü olduğu üçün rəsmi şəxslərdən məsələ ilə bağlı məlumat ala bilmədik. Mövcud durumu "Yeni Müsavat"a şərh edən sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov isə bildirdi ki, hazırkı məqamda büdcədə neftin qiymətinə yenidən baxmağa ehtiyac var: "Hələ bir müddət öncə neftin qiymətinin kəskin ucuzlaşacağı ilə bağlı proqnoz verməmişdim və artıq bu, baş verməkdədir. Doğrudan da, neftin qiymətlərinə güvənib, nəyisə hesablamaq doğru deyil. Çünki son illər baş verən hadisələrin gedişatı göstərir ki, qiymət dünya müstəvisində yaşanan siyasi hadisələrdən daha çox asılıdır, nəyinki, iqtisadi proseslərdən. Yəni neftin qiymətinin dəyişməsinin iqtisadi proseslərlə bağlılığı daha azdır. Bu baxımdan da neftə güvənmək olmaz. Bu ilin ortalarında büdcədə neftin qiyməti 1 barel üçün 50 dollara qaldırıldı. O zaman hətta təklif etmişdim ki, bu qiymət, yüksəkdir və buna getmək lazım deyil. 2019-cu ilin büdcəsində də neftin qiyməti 1 barel üçün 60 dollar nəzərdə tutulub. Bu da, əlbəttə ki, yüksək qiymətdir. Hazırkı zamanda Rusiyada Mərkəzi Bank və digər aidiyyəti qurumlar səviyyəsində neftin qiymətinin 35 dollar olacağı proqnozlaşdırılır. Yəni Rusiya öz işini bu qiymətlər ətrafında köklənməyə hazırlaşır.



Ona görə də hesab edirəm ki, neftin qiymətləri baxımından hələ ki gec deyil. Bizim büdcəmiz təsdiq edilməyib və düzəliş etmək mümkündür. Düzdür, mütəxəssislər və başqa rəsmilər deyirlər ki, neftin qiymətinin dünya bazarında aşağı düşməsi, büdcəyə təsir etməyəcək. Lakin mən belə düşünmürəm. Məsələyə ümumi prizmadan yanaşmaq lazımdır. Əgər neftin qiyməti aşağı düşəcəksə, bütövlükdə büdcə xərclərinin azaldılmasına gedilməlidir. Büdcə xərclərinin çoxluğu, yəni bazara bu xərclər vasitəsilə daha çox çıxış, manatın məzənnəsinə olan təzyiqləri artıracaq. Büdcədə əmək haqqı, pensiyaların artırılması var ki, təbii ki, bunlara toxunulmayacaq. Ancaq ikinci, üçüncü və digər dərəcəli xərclər də var ki, həmin xərcləri dayandırmaq olar. Bu prizmadan yanıb, büdcəyə yenidən baxmaq pis olmaz".

İqtisadçı bildirib ki, gələn ilin gedişatı hər şeyi göstərəcək: "Hökumətin imkanı var ki, büdcəyə ildə bir neçə dəfə baxıb, dəyişdirsin. Neftin qiymətinin vəziyyəti və digər iqtisadi məsələlər nəzərə alınmaqla, istənilən zaman büdcəni yenidən bölmək mümkündür. Bu gün neftin qiymətinin 60 dollardan aşağı düşdüyü və bundan sonrakı proqnozların onun daha da aşağı düşməsini ortaya qoyduğu zamanda biz də düşünməliyik. 2015-ci ildən sonra qeyri-neft sektoru sahəsində xeyli işlər görülüb və çox yaxşı nəticələr də var. Bunu, heç kim dana bilməz. Həqiqətən də qeyri-neft sektorunun, onun aparıcı sahəsi olan qeyri-neft sənayesinin, aqrar sektorun, turizmin inkişafı ilə bağlı son illər genişmiqyaslı işlər görülüb. Bunun üçün də lazım olan bütün qərarlar qəbul edilib, addımlar atılıb. Lakin bir həqiqət də var ki, bununla da barışmalıyıq. Bu gün qeyri-neft sahəsi üzrə 10 ay ərazində cəmisi 1.2 milyard manatlı ixrac edə bilmişik. Bu, neftdən kənar ixracımızın həcminin çox aşağı olduğunu göstərir. Bu rəqəm, bizim ümumi idxalımızın az hissəsini təşkil edir. Ona görə də deyə bilərik ki, bütövlükdə qeyri-neft sektoru üzrə sürətli inkişaf var. Ancaq hələ ki ixrac etdiyimiz məhsullardan ölkəyə gətirdiyimiz valyutanın həcmində əsaslı dönüş yoxdur. Ən çox narahatedici məsələ də budur. Milli valyutanın məzənnəsinin sabit saxlanmasının əsas şərti, ölkədə valyuta ehtiyatlarının kifayət qədər olmasıdır. Doğrudur, bu gün bizim həm Dövlət Neft Fondunda, həm də Mərkəzi Bankda rezervlərimiz var. Ancaq neftin qiyməti kəskin aşağı düşərsə, verilən proqnozlar özünü doğruldarsa, ilk növbədə manatın məzənnəsi ətrafında vəziyyət gərginləşəcək. Məhz buna yol verməmək üçün təklif edirəm ki, neftin qiymətlərinə büdcədə yenidən baxılsın. Sözsüz ki, neftin ucuzlaşması büdcəyə təsir edəcək".

İqtisadçı bildirib ki, dünyada bu cür proseslərdə necə davranılırsa, Azərbaycanda da eyni addım atılmalıdır: "Dünya bazarlarında neftin qiymətinin aşağı düşməsi və ölkəmizə valyuta daxilolmasının azalması fonunda, möhkəm valyuta bazarında kifayət qədər böyük təzyiqlər yarana bilər. Bu məqamda xərclərin azaldılması, əslində bizim kəşf etdiyimiz "velosiped" deyil. Dünyada belə halallarda büdcə xərcləri mütləq şəkildə azaldılır. Bunu, həm Beynəlxalq Valyuta Fondu, həm Dünya Bankı, həm də dünyanın digər maliyyə institutları belə durumlar üçün tövsiyə ediblər və edirlər. Onlara sorğu göndərsək ki, belə bir məqamda hansı addımı ataq? Cavabları ilk növbədə büdcə xərclərinin azaldılması ilə bağlı olacaq. Çünki bu üsulla valyuta bazarına təzyiqlər də azalacaq".

❑ Əli RAİS,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 252 (7141) 26 noyabr 2018

# "Bu, prezidentə, xalqa və dövlətə xəyanətdir"

## Fəzail Ağamalı: "Biz onlara qarşı, sözün həqiqi mənasında, müharibə elan etməliyik"

**"Baxış bucağı"**

**Milli Məclis Nazirlər Kabinetinə büdcə zərfi ilə bağlı bir həftə vaxt versə də, sonradan bu müddət artırıldı. Beləliklə, 2019-cu ilin büdcə zərfinin ikinci oxunuşda müzakirəsi noyabrın 27-nə təyin olunub. Plenar iclaslarda aktiv iştirak edən və hökumət qarşısında bir sıra vacib məsələlərlə bağlı təşəbbüslər qaldıran AVP sədri, deputat Fəzail Ağamalı ilə söhbətimizdə büdcə müzakirələrindən danışdıq.**

***- Fəzail bəy, büdcə müzakirələrinin vaxtının dəyişdirilməsi bunu deməyə əsas verirmi ki, hökumət deputatların təkliflərinə daha ciddi yanaşıb və yeni tərkibli Nazirlər Kabineti fərqli layihə ilə parlamentə qayıdacaq?***

- Mənə elə gəlir ki, sizin qənaətiniz düzgündür. Mən də elə fikirləşirəm. Biz bir neçə gün bundan öncə komitələr səviyyəsində bir daha müzakirələr apardıq və orda yenə də əlavə təkliflər səsləndi. Maliyyə Nazirliyinin rəsmisi məlumat verdi və belə bir fikir söylədi ki, millət vəkilləri 230-dan çox təkliflər irəli sürüblər. Bu təkliflər kifayət qədər ciddi, əhəmiyyət kəsb edən təkliflərdir. Ona görə də ekspertiza səviyyəsində, mütəxəssislər səviyyəsində, təbii ki, büdcəni hazırlayan peşəkarlar səviyyəsində həmin təkliflərin analizi gedir. Onların hansının daha aktual, daha ciddi əhəmiyyət kəsb etdiyi və büdcənin vermiş olduğu imkanlar daxilində həmin təkliflərin nəzərə alınacağı gözlənilir. Bu haqda isə parlamentin 27 noyabrda keçiriləcək plenar iclasında, ikinci oxunuşda maliyyə naziri cənab Samir Şərifov ətraflı məlumat verəcək.

***- Siz büdcə müzakirələrində demoqrafik problemə diqqət çəkdiniz və doğum statistikasının ilbəil aşağı düşdüyünü deyib təcili tədbirlər görməyə çağırış etdiniz. Sosialyönümlü büdcədə bu problemlə bağlı təkliflərin nəzərə alınacağını güman edirsinizmi?***

- Mən düşünürəm ki, bu, doğrudan da, peşəkarlıqla hazırlanmış, əslində islahatların dərinləşməsinə xidmət edən büdcədir. Mənə belə gəlir ki, 2019-cu ildə biz bunun konkret nəticələrini görəcəyik və növbəti illər üçün daha geniş meydan açılacaq və ciddi plasdarm kimi özünü təsdiq edəcək, mənim şübhəm yoxdur. Bununla bərabər təbii ki, orada hörmətli həmkarlarımın, eyni zamanda mənim də söyləmiş olduğum fikirlər var. İndi düşünürəm ki, təkliflərin içərisində əhali artımının azalması ilə bağlı əlimizdəki faktlar kifayət qədər ciddi faktlardır. Biz əhali azalmasının qarşısını hansı yollarlasa almalıyıq. Bunun qarşısını almaq üçün təbii ki, indiyə qədər fəaliyyətini kifayət qədər yaxşı quran Ailə, Uşaq Məsələləri üzrə Dövlət Komitəsi bundan sonra da işini daha geniş şəkildə qurmalı, bu məsələyə daha ciddi diqqət verməlidir ki, artımın azalmasının qarşısı alınsın. Siz əgər statistikaya fikir verdinizsə, 2011-ci ildən sonra böyük sürətlə azalma başlayıb. Yəni ildən-ilə azalma artıb. Bəzən deyirlər ki, bizdə ölümlə artım arasında o qədər böyük fərq yoxdur. Bu, çox yaxşıdır ki, ölüm həddi bizdə müəyyən dərəcədə yuxarıdadır. Lakin bu da son hədd deyil. Yeri gəlmişkən, ölkə prezidentinin çox önəmli addımlarından biri də Qida Təhlükəsizliyi Agentliyinin yaradılması oldu. Çünki Azərbaycana mənşəyi bilinməyən, kifayət qədər ciddi xəstəliklər yaradan qida məhsulları gəlir. Bunun qarşısını almaq üçün məncə, Qida Təhlükəsizliyi Agentliyi çox ciddi işlərə başlayıb, əhəmiyyətli addımlar atır. Mən onların prinsipial mövqeyini müdafiə edirəm, dəstəkləyirəm və ümidvaram ki, onlar daha ciddi şəkildə insanlarımızın ömrünü kəsən, dəhşətli xəstəliklər yaradan bu ərzaq mafiyasına qarşı mübarizəni davam etdirəcəklər. Bu məsələdə biz onlarla bərabərik, bu - birmənalıdır!

***- Dediyiniz ərzaq mafiyası faktiki olaraq, insanların, sağlamlığına zərbə vuran fəaliyyətlə məşğuldursa, onlara qarşı cəzaların sərtləşdirilməsi məsələsi parlamentin gündəliyinə gələ bilərmi?***

- Mənə belə gəlir ki, ölkə prezidenti bunun fərqindədir. Ona görə də Qida Təhlükəsizliyi Agentliyini yaratdı. Bu qurumun rəhbəri də çox prinsipial mövqe nümayiş etdirir. Məncə, ətrafına da sağlam insanları yığmalıdır. O adamlar ki, rüşvətə, korrupsiyaya öyrəniblər, onları heç nədən çəkinmədən uzaqlaşdırmalıdır və xalqın qayğısına qalan, saf düşüncəli, dövlətinə, ölkə prezidentinin xəttinə sədaqətli olan adamlardan komanda yaratmalıdır. O komandanın vasitəsilə həmin ərzaq mafiyasına qarşı təpki göstərə bilər. Əlbəttə ki, bununla bağlı məhz Qida Təhlükəsizliyi Agentliyi də konkret təkliflərlə çıxış etməlidir. Onların ünvanları dəqiqləşdirilib açıqlanmalıdır, şifrə ictimailəşdirilməlidir. Belə olan halda təbii ki, biz də Agentliklə bərabərik. Mənə elə gəlir ki, buna ölkənin hüquq-mühafizə orqanları da biganə qalmayacaq və biz onlara qarşı sözün həqiqi mənasında müharibə elan etməliyik. Bu müharibədə Azərbaycan xalqının sağlamlığı əsas götürülərək onların fəaliyyətinə tamamilə son qoymalıyıq. Ehtiyac olarsa, təbii ki, onların haqqında cinayət işi də açmaq olar. Çünki əgər onların gətirdiyi qida məhsulları insanlarda onkoloji, ürək xəstəlikləri yaradırsa, bunun cəzası ağır olmalıdır. Hətta bətndə olan uşaqlar belə, xəstə doğulursa, mənə elə gəlir ki, bu, qidalanma və ekologiya ilə bağlıdır. Orada irsi amil də var. Amma məncə, bu halların böyük əksəriyyəti qidalanma ilə bağlıdır.

Yeri gəlmişkən, bunu da deyim: son dövrlər ekologiya nazirinin, bizim hörmətli həmkarımız Muxtar Babayevin sərt mövqeyi nəticəsində bu gün Bakını zəhərli tüstüyə bürüyən şadlıq evlərinin fəaliyyəti dayandırılır və onlara deyilir ki, buyurun, lazımi texnologiyanı gətirin, ekoloji fəlakət yaratmayın. Bu baxımdan çox önəmli addımlar atılır ki, alqışa layiqdir. Ancaq əgər o ərzaq mafiyası ki, xalqın faciəsi, xəstəliyi üzərində varidat qazanırsa, birinci, Allah onları bağışlamayacaq, bu - birmənalıdır. Özləri də olmasa, övladları çox ağır və acınacaqlı vəziyyətə düşəcək onların əməllərinə görə. İkinci də onlar üzə çıxarılmalı, bələlərinə qarşı qəti mövqe ortalığa qoyulmalıdır. Hüquq-mühafizə orqanları da onlara qarşı ciddi addımlar atıb, cinayət işi açmalıdır ki, beləliklə, ölkəmizə idxal olunan zəhərli və insan səhhətinə ağır fəsadlar törədən həmin ərzaqların qarşısı alınsın.

***- Fəzail bəy, siz və bir sıra həmkarlarınız uşaqlara müavinətlərin verilməsi təşəbbüsü ilə çıxış etdiniz. Necə bilirsiniz, hökumət bu təşəbbüslərə müsbət yanaşacaqmı?***

- Nəzərə alsaq ki, bizdə ailə institutu xeyli zədələnib, aşılanmağa doğru gedir. Bəzən nikahdan kənar uşaqlar doğulur, ata deyilən şəxs qadını və uşağı tək qoyur, onları çox çətin duruma salır. Həmin qadınların da çoxunun savadı, peşəsi yoxdur, iş tapa bilmir. Belə vəziyyətdə Azərbaycan vətəndaşı olduqları üçün onların da himayəyə ehtiyacı var, ehtiyaclarının ödənilməsi zərurəti var. Odur ki, məncə, büdcə zərfini hazırlayan işçi qrupu bu məsələyə diqqət yönəldəcək və imkan daxilində uşaqlara maddi yardımın artırılması və eyni zamanda uzunmüddətli müavinətlərin verilməsi ilə bağlı ilk addımlar atılacaq. Mən buna ümidliyəm.

***- Parlamentdə xalqın və dövlətin pullarını talayanların mülkləri hesabına şəhid ailələrinə çatacaq vəsaitlərin ödənilməsini təklif etmişdiniz. Bu, nə dərəcədə realdır? Ümumiyyətlə, söhbət adlarını çəkdiyiniz bir neçə şəxsdən gedir, yoxsa siyahı daha genişdir?***

- Ümumiyyətlə, KİV-də, eyni zamanda, sizin qəzetin də səhifələrində vaxtilə ayrı-ayrı yüksək vəzifə tutanların təəssüf ki, işlədiyi dövrdə yox, sonradan varidatı üzə çıxır, ictimailəşdirir və qarşı tərəf bunu təkzib etmir. Eyni zamanda, bu məlumatı ötürəni məhkəməyə vermir. Deməli, çıxılan nəticə bundan ibarətdir ki, KİV-dəki məlumatlar doğrudur. Əgər belədirsə, onda mən çox arzu edərdim, həm də xahiş edərdim ki, hüquq-mühafizə orqanları hərəkətə keçsin, adlarını çəkdiyim və çəkmədiyim adamların sadəcə, təsnifatı aparılsın. Onların varidatı haqqında bir araşdırma aparılsın. Əgər onlar həqiqətən zəhmətlə, əziyyətlə o pulları qazanıb bu varidata sahib olublarsa, halal xoşları olsun. Yox, əgər dövlətin, xalqın, bax, həmin uşaqların, əlillərin pulunu, bütün məmurların və vətəndaşlarımızın əmək haqqını oğurlayaraq o varidata sahib olublarsa, onlar, bəli, araşdırılıb üzə çıxarılmalı və müvafiq tədbirlər görülməlidir. Bu baxımdan təbii ki, mən Milli Məclisdə üzümü tutdum hüquq-mühafizə orqanlarına və eyni zamanda xahiş etdim ki, onlar bu məsələni araşdırsın və nəhayət, bu tendensiyaya son qoyulsun! Bundan sonra yəqin ki, mən Hesablama Palatasının hesabatında da məsələ qaldıracağam. Hesablama Palatası daha ciddi işləməlidir, faktları daha ciddi şəkildə üzə çıxarmalıdır və həmin faktlar birbaşa hüquq-mühafizə orqanlarına ünvanlanmalıdır. Etiraf etmək lazımdır ki, Hesablama Palatası son illər Hesablama Palatası və onun rəhbəri Vüqar müəllimin mövqeyini, təmizliyini qiymətləndiririk. Bilirəm ki, o, imkanları daxilində öz vəzifəsini uğurla yerinə yetirməkdədir. Lakin bu, kifayət deyil. O, daha sərt mövqe nümayiş etdirməlidir. Çünki başqa forma yoxdur. Həmçinin o faktlar hüquq-mühafizə orqanlarına təqdim olunmalıdır ki, xalqın, dövlətin varidatını oğurlayan insanlar onu xalqa qaytarsın.

Baxın, ölkə prezidentinin, onun xalqa bağlı, təmiz imici olan, sədaqətlə dövlətinə və xalqına xidmət edən kadrlarının çətin əməyi nəticəsində ölkə inkişaf edir, varlanır. Onun içərisindən çıxan bir sıra məmurlar həm də onların əməyini mənimsəyərək xalqın varidatını oğurlayırlar. Bu, həm də ölkə prezidentinə, Azərbaycan xalqına və dövlətinə xəyanətin bir formasıdır, ayrı adı yoxdur. Buna görə ümidvaram ki, hüquq-mühafizə orqanları bu məsələ ilə bağlı hərəkətə keçib özünün sərt mövqeyini ortalığa qoyacaq. Xalq da heç şübhəsiz ki, hüquq-mühafizə orqanlarının bu addımlarını ancaq və ancaq alqışlayacaq, xalq və dövlət qarşısında onların nüfuzu artacaq.



**"İnsanlarımızın ömrünü kəsən, dəhşətli xəstəliklər yaradan bu ərzaq mafiyasına qarşı..."**

**❑ Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**



# Möcüzə iqtisadiyyatı

Zamin HACI
zaminhaci@gmail.com

"Kitablar və filmlərdən gələn klişelər elə güclüdür ki, hətta Fransanı canlı görmək də bunu dəyişmir. Kitablardakı yox, əsl Fransa başqa ölkələr kimi darıxdırıcı bir yerdir, burda adamlar sevgi, macəra, mistika ilə yox, vergilər, daşınmaz əmlak və benzinin qiyməti ilə maraqlanırlar"

*(Boris Akunin, "Qəbristanlıq əhvalatları")*

**Neftin qiyməti keçən ilin oktyabrındakı səviyyəyə düşübmüş. Dünyada neft istehsalından asılı ölkələr bundan narahatdır, yalnız bizdən başqa. Bunun iqtisadi səbəblərini anlamaq çox çətindir, demək olar faktiki mümkün deyildir. Bəlkə də haçansa azərbaycanlıların dolanışıq modelini araşdıran adama iqtisadiyyat üzrə Nobel ödülü verəcəklər.**

Özünüz baxın: dövlət büdcəsinin az qala hamısı neft sektoru hesabınadır, eyni zamanda bizdə qeyri-neft sektoru da inkişaf edir. Hələ üstəlik regionda ən böyük hərbi büdcəmizin olmasıyla fəxr edirik. Bəs buna pulu hardan tapırıq - böyük sirrdir. Buna gizli iqtisadiyyat da demək olmur, bu nəsə tamam ayrı bir şeydir. Örnək üçün, görürsən hansısa məmuru, generalı, bankiri, deputatı, rektoru-filanı işdən çıxardırlar. Bunun rəsmi maaşıyla uzağı Əhmədlidə qaraj almaq olar, o da yeməyib-içməyib 200 il pulu yığsa. Ancaq baxırsan qardaşımızın (bacımız da ola bilər - şəraitdən asılıdır) 7 yerdə villası, 77 yerdə obyekti, şadlıq sarayı, moykası, restoranı, torpaq sahəsi, dağı, şəlaləsi, zirvəsi, gölməçəsi, iti, pişiyi, dinozavr sürüsü və sairə aşkara çıxdı. Saxladığı müğənnilər, rəqqasələr, arvadlar, məşuqələr isə bir yerə toplaşsalar sanarsan ərəb şeyxi ailədaxili iclas keçirdir. Ortaya sual çıxır ki, bəs biz niyə indiyə qədər bunları bilmirdik. Əlsində tam olaraq "bilmirdik" demək olmaz. Bilirdik. Ancaq hər halda bu qədərini bilmirdik. Misal üçün, bilirdik ki, Filankəs müəllimin 2 şadlıq sarayı var. Amma 6 dənəsi çıxır.

Eyni şey bütün uca millətimizə aiddir. Ən yetim azərbaycanlını da sıxsan hardansa, hansısa cibindən Afrika ölkəsi Cibuti-nin ÜDM-i qədər vəsait çıxardacaq. Mənbəyini soruşsan, hərəyə bir söz uyduracaq. Birinə deyəcək Rasiyadan göndəriblər. O birinə deyəcək həyətdə tualet yeri qazanda qızıl tapmışam . Üçüncüsünə daha maraqlı olsun deyə fantaziya gücüylə bir nağıl uyduracaq, misal üçün, deyəcək babam Məmmədnəsir kişi almanlarla müharibə vaxtı Berlində Hitlerin xəzinəsini ələ keçirmişdi. Ancaq sizi inandırım, çox vaxt camaat heç özü də bilmir bu vəsait, sərvət hardan çıxdı. Bizim ölkənin altı-üstü, böyrü-başı, yeri-göyü doğrudan da qızıldır. Möcüzə ölkədir. Əlini sal qoltuğuna, bir çamadan pul çıxsın. Sehrbaz kimi millətik.

Hökumət də bunu qəşəng bilir, ona görə iş yerlərini bağlaya-bağlaya, qiymətləri qaldıra-qaldıra, təpəmizə şapalağı endirə-endirə getməkdədir. Çün, bizim istənilən dəyirmanın gözündən diri çıxacağımızı bilirlər. Səbir kasamızın dibi yoxdur. Bıçağın sümüyə dirənməsi üçün gərək millətin ilk növbədə sümüyü olsun. Biz isə onurğasızlara aidik. Sümüksüz camaatıq. Müasir dünyada kefin istəsə bunu elastiklik, çeviklik tərzi saymaq olar. Sümüksüz ət daha bahalıdır. Daha qiymətlidir.

Odur, baxın, Fransada hökumət dizel və benzinin qiymətində yüngülvari artıma gedib, camaat Parisi partladır. Hər yerdə küçə nümayişləri, mitinqlər keçirilir. Çünki əfəl millətdir bu fransızlar. Dözümsüz, səbirsizdirlər. Əhalinin istirahət hüququnu pozurlar. Keçmiş polis rəisimiz Nazim Nağıyev demişkən, "çimənliyi tapdayırlar". Mən dünən bu fransızların mitinqlərinə xeyli baxıb, güldüm. Təsəvvür elə, etirazçı polisin yanında dayanıb intervü verir. Polis isə onu döymür. Mitinqçilər yolu bağlayıb rəqs edirlər, polis isə onları dağıtmaq yerinə, onların üstünə maşın sürən sürücünü qulaqlayıb aparır. Toy karvanı aksiya meydanına gəlir, gəlin düşüb etirazçılara qoşulub oynayır. Çoxlu belə əcaib mənzərə vardı. Heç bir yerdə mülki formada "ə, bını bas maşına" deyən idmançı gənclər də gözə dəymirdi. Belə də ölkə olar? Napoleon bu qanacaqla dünyanı tutmuşdumu, inanmağım gəlmir. Misal üçün, elə dünən 25 noyabr bizdə gözəl formada yerlə bir olmuş etiraz aksiyasının ildönümü idi. Yadıma gəlir, nə qədər adamın ayaqqabısı "Qələbə" kinoteatrı önündə qalmışdı. Fransız aksiyaçılar isə Qələbə tağının qabağında polislə mırtdaşırdılar.



# İşğalın bitəcəyi gün - "Azərbaycan nöqtəni o vaxt qoyacaq!.."

## Analitiklər İrəvan üçün qaçılmaz olan perspektivdən danışdılar: "Ermənistan oyunu uduzub"; "Bakı yalnız Moskvanın israrı ilə hərbi yola əl atmır..."

**Ermənistanla Rusiyanın münasibətlərində növbəti kritik məqam yaxınlaşır. Gələn həftə - dekabrın 6-da Sankt-Peterburqda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT, "Rus NATO-su") üzv dövlətlərin rəhbərlərinin sammiti keçiriləcək. Toplantıda əsas intriqalı mövzu təşkilatın baş katibinin seçilməsi məsələsi olacaq.**

Bu mövzunun ən çox işğalçı ölkənin yeni rəhbərliyi üçün prinsipial önəm daşıdığı sirr deyil. Əvvəla, sammitdən cəmi 3 gün sonra - dekabrın 9-da Ermənistanda erkən parlament seçkiləri keçiriləcək. Baş nazir əvəzi Nikol Paşinyan isə çox istərdi ki, seçkilərə "Peterburq zəfəri" ilə getsin və müxalifətin əlinə əks-təbliğat üçün tutarqa verməsin. Yəni İrəvan vaxtından əvvəl geri çağırdığı erməni baş katib Yuri Xaçaturovun yerinə başqa bir erməninin təyinatına nail olmağa çalışır. İkinci yandan, nə qədər paradoksal olsa da, Ermənistan həm də bir "qürur məsələsi"nə görə bunda israr edir. Vassal ölkənin qüruru da varmış...

Ancaq gerçək belədir ki, blokun əsas üzvləri - Rusiya, Belarus və Qazaxıstan Paşinyanın "bir suya iki dəfə girməsi"nə qarşıdır və ona yaxşı mənada seçki sürprizi etmək istəyindən uzaqdır. Əks halda üstəlik, belə qənaət yaranacaq ki, cırtdan və satellit Ermənistan təşkilatla istədiyi kimi davranır, üzv ölkələrə qarşı şərtlər və tələblər irəli sürür və hədəfinə çatır. Başqa sözlə, digər üzv dövlətlər Ermənistandan da naqolay duruma düşəcək.

*****

"Yeni Müsavat" bu yerdə xatırladır ki, KTMT-də baş katib böhranını bir neçə ay öncə elə Nikol Paşinyan özü yaradıb - Moskva, Minsk və Astana ilə məsləhətləşmədən Yuri Xaçaturova qarşı cinayət işi qaldırmaqla. Kremldə hesab edirlər ki, bununla İrəvan ilk növbədə təşkilatın imicinə zərbə vurub və ona görə də qarşılığını Paşinyan hansısa şəkildə ödəməlidir. Az sonra isə İrəvan Xaçaturovu baş katiblikdən geri çağırıb və yerinə başqa namizəd irəli sürüb. Beləcə, öz demarşı ilə ən çox Moskvada qəzəb doğurub.

Onu da nəzərə alsaq ki, baş katib seçkisi konsensusla həll olunur, o zaman Ermənistanın istəyinin baş tutmayacağı indidən aydın olar. Ayrı sözlə, N.Paşinyanın planı keçməyəcək və o, "əkdiyini biçməyə" başlayacaq. Proses artıq başlayıb: təşkilatda Ermənistana etimad hazırda kəskin şəkildə aşağıdır. Hətta blok üzvü olmayan Azərbaycan orada qat-qat böyük nüfuz və hörmət sahibidir.

Ermənistanın KTMT-dən çıxarılmasının gündəmə gələcəyi də istisna edilmir. Ermənistan prezidentinin müşaviri Tevan Poqosyan isə jurnalistlərə açıqlamasında sanki qabaqdangəlmişlik edərək bildirib ki, "əgər atacağımız addım maraqlarımıza cavab versə, o zaman Ermənistan KTMT-ni tərk edə bilər".

Azərbaycanla Ermənistanın bir-biri ilə müharibə vəziyyətində olduğu da nəzərə alınarsa, prosesin yekununda nələrin olacağı maraq doğurur. Bu yöndə ekspertlərin proqnoz və gözləntilərini təqdim edirik.

*****

"Paşinyan Xaçaturov məsələsindən heç nə udmadı". Bunu erməni KİV-ə açıqlamasında rusiyalı politoloq Stanislav Tarasov deyib. Onun sözlərinə görə, KTMT daxilində yaşanan böhranın tək səbəbi Ermənistandır.

"Hər şey Paşinyanın Xaçaturova ittihamlar səsləndirməsi ilə başladı. Ermənistan bundan nə uddu? Heç nə, əksinə, uduzdu. Putin Soçidə Paşinyanla ilk görüşündəcə ona bu haqda demişdi. Demişdi ki, hələlik tarixlə haqq-hesab çəkmək vaxtı deyil, Ermənistan daxilində sizin ürəyinizcə olmayan insanlar arasında təmizlik aparın, yeni hökumət formalaşdırın, hər şeyi dəyişin, ancaq Xaçaturov səviyyəsində olan və KTMT-yə üzv 5-6 ölkənin prezidentləri səviyyəsində toxunulmazlığa malik məmurlara toxunmayın", - deyə o bildirib.

Lakin artıq məlumdur ki, Paşinyan Putinin xahişini yerə salıb.

Başqa bir tanınmış rusiyalı politoloq, PolitRus İnformasiya Analitik Portalının qurucusu və rəhbəri Vitali Arkov Ermənistanın yeni hökumətinin sələfləri kimi Kremli şantaj eləmək taktikasını davam etdirdiyi qənaətindədir. KTMT-dəki böhranla bağlı axar.az-a (rus versiyası) verdiyi açıqlamada o, bununla İrəvanın bir neçə hədəfə nail olmaq istədiyini söyləyib.

"Birinci hədəf odur ki, təşkilatda öz üzvlüyünü müvəqqəti dayandırmaq hədəsi ilə İrəvan Azərbaycanın təşkilata müşahidəçi və ya tərəfdaş kimi qoşulmasına mane olmaq istəyir. İkincisi, eyni hədə ilə və NATO ilə təmasları artırmaqla Moskvanı daha əli açıq eləməyə ümid edir. Söhbət təkcə kreditlə İrəvana yeni partiya silahların verilməsindən yox, həm də faktiki, havayı verilməsindəm gedir. Üçüncüsü isə getdikcə daha aydın şəkildə görünür ki, Ermənistanın yeni rəhbərliyinin KTMT ilə bağlı siyasəti NATO və ABŞ-ın marağında, istisna eləmirəm ki, həm də nəzarətindədir".

Politoloqa görə, Ermənistanda anti-Rusiya ovqatı qalib gəlsə, o zaman bu ölkə özünün bütün problemləri ilə təkbətək qalmalı olacaq: "Ermənistan qərara gəlib ki, daha Rusiyanın müttəfiqi olmasın. Qoy onda öz problemlərini, o sırada Azərbaycanla problemini özü həll eləsin. O Azərbaycan ki, Qarabağ məsələsini hərbi yolla həll eləmək fürsətini yəqin ki, əldən buraxmayacaq".

Lakin politoloq şübhə eləmir ki, Bakının hərbi əməliyyatları, Azərbaycanın beynəlxalq miqyasda tanınmış sərhədlərindən kənara çıxmayacaq. "Aydındır ki, Azərbaycan Ermənistan ərazisinə qəsd etməyəcək ki, bir növ Ermənistanla yerini dəyişərək bu dəfə o, təcavüzkar ölkə statusuna düşməsin. Ancaq Bakı hərbi əməliyyatlara başlamağa istənilən an hazırdır. Əminəm ki, bunu indi o, sırf Moskvanın xahişinə görə eləmir. Lakin Moskvanın Paşinyanın özbaşınalığına dözümü sonsuz deyil", - deyə ekspert İrəvana xəbərdarlıq edib.

*****

Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin sədri Eldar Namazov isə Paşinyanın son davranışlarını Ermənistanın Avropa və ABŞ-ın təsir dairəsinə keçmək planlarının və istəklərinin təzahürü sayır.

"Bunun müxtəlif sahələrdə şahidi olacağıq. Hələ bundan sonra Avrasiya İqtisadi Birliyinin iclaslarında, beynəlxalq təşkilatlarda keçirilən səsvermələrdə də bu cür hallar yaşana bilər. Yəni hazırda çox ciddi proseslər gedir. İnanmıram ki, bu prosesə dekabrın əvvəlində son qoyulsun. Növbəti iclasa qədər bu ziddiyyətlərin aradan qalxacağı inandırıcı görünmür. Bu ziddiyyətlərdə kompromisə gəlmək nə Paşinyanın, nə də qarşı tərəfin marağındadır. Ona görə də güman edirəm ki, Sankt-Peterburq görüşündə ya müvəqqəti olaraq, Rusiya nümayəndəsinin bu vəzifəni icra etməsi qərarına gələcəklər, ya da problemin həlli növbəti iclasa qalacaq. Bu məsələ belə də uzanacaq" - politoloq vurğulayıb.

E.Namazovun sözlərinə görə, gec-tez bu ölkələr açıq şəkildə istəklərini dilə gətirəcək: "Tərəflərdən birinin siyasi səhnədən getməsini biz müşahidə edəcəyik. Görünən odur ki, zəif tərəf Ermənistandır. Ermənistan hakimiyyətinin həm daxili, həm də xarici siyasətdə durumu getdikcə daha da pisləşəcək. Bu prosesdə Azərbaycan hər zaman öz ərazi bütövlüyünü bərpa etməyə, bu vəziyyətdən istifadə edib Qarabağ problemini həll etməyə və son nöqtəni qoymağa hazır olmalıdır".

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 252 (7141) 26 noyabr 2018

**Azərbaycanın işğal olunmuş ərazisi olan Dağlıq Qarabağda qurulan qondarma rejimin başçısı Bako Saakyanın Moskvaya səfər etdiyi xəbəri yayılıb. Bako Saakyanın Moskvaya səfəri ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat yayıb.**

# Saakyanın ard-arda üç vasitəçi ölkəyə səfərləri - nə baş verir?

Bəyanatda bildirilir ki, erməni kütləvi informasiya vasitələrində yer almış məlumata əsasən, Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin "rəhbəri" Rusiya Federasiyasına səfər edib, qanunsuz rejim nümayəndəsinin Rusiya Federasiyasının ərazisinə daxil olmasına icazə verilməsi Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli prosesinin irəli aparılması səylərinə xələl gətirir və Rusiyanın ATƏT-in Minsk Qrupunun həmsədri qismində vasitəçilik öhdəlikləri ilə ziddiyyət təşkil edir: "Rusiya tərəfinin bu addımı Azərbaycan və Rusiya arasında mövcud olan münasibətlərin yüksək səviyyəsinə uyğun gəlmir və ikitərəfli münasibətlərin normativ-hüquqi bazası ilə, xüsusilə də "Tərəflərin separatçı hərəkatları dəstəkləməmək, digər tərəfin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə qarşı yönələn şəxslərin fəaliyyətini qadağan etmək öhdəliyini" əks etdirən Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə ilə ziddiyyət təşkil edir. Qanunsuz qurumun "rəhbərinin" ATƏT-in Minsk Qrupu həmsədr ölkələrinə səyahətləri, münaqişə üzrə vəziyyətin gözlənilməz inkişafına gətirib çıxara bilər. Belə olacağı təqdirdə bütün məsuliyyət Ermənistan tərəfinin üzərinə düşür".



Qeyd edək ki, bundan əvvəl son iki həftədə Bako Saakyan Minsk Qrupunun digər iki həmsədri olan ABŞ-a və Fransaya ard-arda səfər edib. Azərbaycan XİN o zaman da bəyanat yayaraq ABŞ-ın Minsk qrupunun üzvü kimi Dağlıq Qarabağ rejimi nümayəndələrinə viza verməsinin ciddi suallar doğurduğunu bildirmişdi və Vaşinqtona etirazını ortaya qoymuşdu. Ən sərt bəyanatı isə Azərbaycan XİN Saakyan Parisə gedən zaman vermişdi. Bəyanatda hətta Fransanın Minsk Qrupu həmsədrliyindən uzaqlaşdırılması mövzusunun müzakirəyə çıxarıla biləcəyi xəbərdarlığı yer alırdı.

Saakyanın ard-arda Minsk Qrupu həmsədri olan ölkələrə səfərlər etməsinin arxasında nələrin dayana biləcəyi haqda müxtəlif ehtimallar irəli sürülür. Bir sıra politoloqlar hesab edir ki, Dağlıq Qarabağdakı rejim proseslərin onların zərərinə getməyə başladığından narahatlıq keçirir. Saakyanın əl-ayağa düşməsi bununla bağlıdır.

Bəzi siyasi analitiklər isə Saakyanın səfərlərinin qondarma rejimin tərəf kimi qəbul etdirilməsi üçün həyata keçirildiyini düşünür.

Keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, qondarma, işğalçı qurumun başçısı Bako Saakyan Ermənistan vətəndaşıdır və şübhəsiz Rusiyaya da Ermənistan diplomatik pasportu ilə gedib: "Amma bu adam özünü necə istəyir o cür təqdim edir. Biz bilirik ki, Saakyanın addımları Azərbaycan qanunlarına ziddir. Bu baxımdan Azərbaycan hüquq-mühafizə orqanları ona qarşı cinayət işi açmalıdırlar. Çünki Saakyanın əməlləri Azərbaycan dövlətçiliyinə, suverenliyinə, ərazi bütövlüyünə qarşı əməllərdir. Odur ki, məhkəmə qərarı çıxarılmalıdır və həmin qərar əsasında biz istənilən dövlət qarşısında, o cümlədən Rusiya qarşısında məsələ qaldıra bilərik. Yəni Bako Saakyanın o cür səfərlərinin qarşısını siyasi bəyanatlarla deyil, hüquqi çərçivədə addımlar atmaqla ala bilərik. Azərbaycan həm İnterpol vasitəsilə, həm də MDB vasitəsilə xüsusi hüquqi mexanizmlər vasitəsilə bunu edə bilər. Bako Saakyan əvvəllər də Rusiyaya və digər ölkələrə səfər edib. Şübhəsiz ki, onun məqsədi və arzusu qondarma işğalçı rejimi beynəlxalq miqyasda mümkün qədər qəbul etdirməkdir. Biz səfər etdiyi ölkələrdə heç bir şəkildə qəbul edilməməsi üçün hüquqi addımlar atmalıyıq. Hüquqi addım isə ona cinayət açıb, beynəlxalq axtarışa verməkdi. Qanunun gücünü tətbiq eləməliyik".

Politoloq Elxan Şahinoğlu isə hesab edir ki, həmsədr ölkələr separatçıları tərəf kimi bizə sırımağa çalışırlar: "Bako Saakyanın ard-arda 3 həmsədr dövlətə səfərə dəvət edilməsi təsadüfi deyil. Bu 3 dövlətin həmsədrləri bir müddət əvvəl bölgədə olmuşdular, Xankəndidə Bako Saakyanla da görüşmüşdülər. Mümkündür ki, bu görüş zamanı onun gələcək səfərləri barədə fikir mübadiləsi aparılıb. Sadəcə, Bako Saakyanın 3 dövlətə dəvət edilməsi həmsədrlərin nəyinə lazımdır? Söhbət Bako Saakyanın mövqeyinin öyrənilməsindən gedirsə, onsuz da Xankəndidə onunla görüşüb istəklərini dinləyirlər. Bu səfərlərin arxasında Azərbaycan üçün başqa təhlükəli tendensiya gizlənir. Həmsədr dövlətlər separatçıların liderini Paris, Vaşinqton və Moskvaya dəvət etməklə bizə onu tərəf kimi sırımağa çalışırlar. Belə həmsədrlər Ermənistan hakimiyyətinin illərdir bizə qəbul etdirməyə çalışdıqları mexanizmi işə salmaq istəyirlər. Elə Ermənistanın hazırkı baş naziri Nikol Paşinyanın da istəyi budur".





**Tofiq Zülfüqarov:** "Ona qarşı cinayət işi açıb, beynəlxalq axtarışa verməliyik"
**Elxan Şahinoğlu:** "Həmsədr ölkələr separatçıları tərəf kimi bizə sırımağa çalışırlar"

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# İmtina vaxtı



**Elşad PAŞASOY**

**Bir çoxları zənn edirdi ki, rəsmi Bakı Rusiyaya etiraz etməyəcək, Bako Saakyanın bu ölkəyə səfərinin üstündən sükutla keçəcək. Amma ehtimal özünü doğrutmadı, Azərbaycan Xarici İşlər Nazirliyi Qarabağ separatçılarının başçısının Moskvaya getməsinə etirazını bildirdi.**

Heç şübhəsiz Rusiya XİN də bəyan edəcək ki, Dağlıq Qarabağdakı qurumu müstəqil dövlət kimi tanımır və onun başçısının səfəri rəsmi şəkildə həyata keçirilməyib. Amma bu, nəyi dəyişir ki?..

Bundan qabaq Saakyan Fransa və ABŞ-da da peyda oldu. Bakı eyni qaydada Parisə və Vaşinqtona etiraz bildirdi. Amma daşdan səs çıxdı, Paris və Vaşinqtondan səs çıxmadı. Kimsə durub demədi ki, Saakyan soyadlı caninin, terrorçunun, başkəsənin Avropada, Amerikada nə ölümü var. Ciddi reaksiya, təpki olmadığı üçün erməni separatçısı Moskvaya - ATƏT-in Minsk Qrupunun üçüncü həmsədr dövlətinin paytaxtına da getdi.

Əslində Bako Saakyanı qudurdan, qorxub-hürkmədən dünya turnesinə çıxmağa cəsarətləndirən elə həmsədr ölkələrdir. Saakyan Parisə getməzdən əvvəl kimləri qəbul etmişdi? Unudanlar üçün xatırladaq: Fransanın Sent Etyen şəhərinin meri və Arnuvil bələdiyyəsinin meri Şuşaya gəlmiş, orada "qardaşlıq" müqaviləsi imzalanmışdı. Eyni vaxtda ABŞ-dan gələn həkimlər qrupu Dağlıq Qarabağda pulsuz müayinə-müalicələr həyata keçirmişdilər.

Azərbaycan bu faktlara etiraz edəndə də Fransa XİN həmişəki nağılla cavab vermişdi: "Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq". Sonra da ABŞ rəsmisi elə bu yazının müəllifinə demişdi ki, "şəxsən mən Dağlıq Qarabağa getmərəm". Bunlar sadəcə, bizi yola verməklə məşğuldurlar. Biz deyirik niyə Azərbaycanın işğal altındakı ərazilərinə qanunsuz səfər edənləri cəzalandırmırsınız, bunların qarşısını almırsınız, deyirlər onlar bizim rəsmi mövqeyimizi ifadə etmirlər.

Erməni canisi Fransaya getməzdən əvvəl həmsədrləri qəbul etmişdi - "artsax bayrağı"nın fonunda. Bu faktın özü həmsdərlərin riyakarlığını göstərir. Bu, həm də o deməkdir ki, de-fakto həmsədrlər Paşinyanın arzusuna uyğun davranırlar, Dağlıq Qarabağı "tərəf" olaraq tanıyırlar. Əks təqdirdə niyə hər dəfə Ermənistandan Xankəndinə gəlib onunla da görüşürlər? Dağlıq Qarabağın Azərbaycanlı İcmasının nümayəndəliyinin yerini tanımayan həmsədrlər hər dəfə Saakyanla nə danışırlar, bilən varmı? Bu başkəsənin mövqeyi nə dərəcədə əhəmiyyətlidir?

Belə aydın olur ki, Saakyanı təlimatlandıran elə Minsk Qrupunun həmsədrləridir. Xankəndi görüşündən sonra Fransa, ABŞ və Rusiyaya edilən səfərin təşkilatçıları elə həmsədrlərdir. Əgər belə olmasa, Saakyanın səfərlərinə Bakının sərt reaksiyasından sonra həmsədrlər hərəkətə keçər, heç olmasa, bəyanat verib qondarma qurum rəhbərini sülh prosesinə zərbə vuran hərəkətlərdən çəkindirərdilər.

Fransa prezidenti Emmanuel Makron oktyabrda İrəvanda olarkən "ermənilər Fransa tarixinin bir hissəsidir və onun fəxridir. Ermənistan bizim üçün çox əzizdir" - demişdi. İşğalçı ölkəni "çox əziz" sayan Fransadan ədalət umuruq, hələ onun erməni separatçısına viza verməsindən təəccüblənirik. Daha iç üzünü açıb bu ölkələr. Saakyanın ABŞ səfərində 12 saat davam edən marafonda Ermənistana və Dağlıq Qarabağa kömək üçün 11 milyon 109 min 633 dollar toplandı. Terroru maliyyələşdirilməyin "müasir" formasıdır. O pullarla alınan silahla öz ərazimizdən bizə atəş açılır. 2 yaşlı Zəhra balamızın ölümündə Bako Saakyanı maliyyələşdirən həmsədr ölkələrin də məsuliyyəti var.

Belələrinə taleyimizi bunca etibar etdik, daha yetər! Torpaqlarımızın işğalında rolu olan bu güclər indi də ermənilərin ərazilərimizdə möhkəmlənməsi, məskunlaşması üçün pullarından keçirlər.

Ölkə prezidenti vaxtilə ad çəkməsə də, demişdi ki, Azərbaycanı güzəştlərə vadar etmək istəyirlər. Son hadisələr bir daha təsdiqləyir ki, Qarabağı bizdən qoparmaq istəyən təkcə Ermənistan deyil. ABŞ Ermənistanı qazanmaq üçün Qarabağdan da keçməyə hazırdır. BMT Təhlükəsizlik Şurasının üzvü olan bu ölkələr 4 qətnaməni çoxdan unudublar, Azərbaycanın ərazi bütövlüyünə səs vermədikləri vaxtdan...

Onların yaramaz fəaliyyətindən imtina üçün özləri fürsət verirlər. Saakyana qucaq açan paytaxtlar sifətini tam nümayiş etdirdi. Üçünə bir bəyanat yetərlidir. Rəsmi Bakıdan indi gözlədiyimiz tək budur...



# Yaxşı oğlan-pis oğlan söhbəti

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Hadisə baş verən gündən eyni mövqedəyəm. Bu ilin yanvar ayında aktyor-rejissor Rza Rzayev məktəb direktoru Tural Mirzəliyevlə insident yaşayanda da bu sözləri demişdim, indi də deyirəm. Düzdü, indi məsələnin rəngi daha da tündləşib, çünki ortaya yumruqlar girib. Amma mahiyyət dəyişməyib.**

Bu mövzuda bir neçə yazı, köşə yazmış və hətta canlı yayın gerçəkləşdirmiş biri olaraq deyirəm ki, yumruqların, zorakılığın işə qarışdığı, göyərmiş gözlərin, qanamış burunların, gipsli qolların olduğu yerdə heç vaxt hadisəyə haqq qazandırmaq olmaz. Ol-maz! Bu sözü ona görə hecalayıram ki, anlaqsız şüurlara bir daha səslənə bilim.

Ortadakı olay nədir, bilirsizmi? Məktəbdə qanunsuzluq olduğunu iddia edən bir müəllimənin yaxını direktorla haqq-hesab çürütməyə çalışır. Çalışır da, çalışır... Aylardır davam edən insident daha sonra bir məhkəmə binasının qabağında partlayır. Olaya yumruqlar qarışır. Aktyor iddia edir ki, direktor o məktəbdə qanunsuzluqla yanaşı, qadın müəllimələrə qarşı da xoş olmayan münasibət sərgiləyib. O da bir azərbaycanlı kişisi olaraq məsələyə müdaxilə edib. İndi mənzərəyə baxıram: bir qisim sırf azərbaycançılıq prinsipindən çıxış edərək haqq qazandırır aktyora. "Hamımızın anası-bacısı var, görk olmalıdır" məntiqi ilə. Halbuki bu iddianı təsdiqləyəcək heç bir fakt yoxdur ortada. Hanı o namusuna söz edilən, taciz qurbanı olan müəllimələr? Niyə biri qabağa dayanıb, "bəli, bu direktor mənə qarşı xoşagəlməz ifadə işlədib" demir? Hansı səbəbdən kimsə ortaya düşüb, öncə dərs saatı, korpus iddiası ilə münaqişə aparıb, sonra namus-əxlaq davası aparmalıdır?

Həqiqətən də cəmiyyət bu məsələdə iki hissəyə bölünüb. Hətta rəyinə hörmət etdiyim şəxslər belə deyirlər ki, bəzi üzdəniraq, əzilən-büzülən gənclərdənsə Rza kimi namuslu-qeyrətli kişilərin cəmiyyətdə olması daha faydalıdır. Tamam, ətrafımız qeyrətli kişilərlə dolu olsun. Qadınlara, qızlara gözəl davransınlar, tanımadıqları qadınlara bacı gözü ilə baxsınlar. Amma zorakılıq ortaya girmədən həll olunsun bu məsələlər. Ölkənin polisi var, hüquq-mühafizə orqanı var. Başına bir iş gələndə 102-yə zəng edirsən, bir neçə dəqiqə sonra hadisə yerinə gəlirlər. Məsələ həll olunmamış, iş bağlanmamış da əl çəkmirlər. Belə hərəkət edən birinin polis tərəfindən cəzalandırılması daha doğru deyilmi? Həbs, türmə həyatı... Nəzərə alanda ki, qız-gəlinə sataşmağa görə həbsə düşənləri türmədə nələr gözləyir, bunun daha ədalətli addım olduğunu düşünmədən keçməyək. Yoxsa ki, "belələrinin dişi qarnına töküləcək, gözü göyərəcək" deyib cəmiyyətdə terror, oğru qanunları əsdirmək niyə xal qazanmalıdır axı?

Baxın, bu gün onlara, sabah sizə... Bu təfəkkür cəmiyyətdə geniş yayıldıqca bizim heç birimiz bundan sığortalanmayacağıq. Sabah bu ideya daşıyıcıları sizin, mənim kimi insanların da qabağını kəsib, qanunlar tətbiq edə, göstərişlər verə bilərlər. Məsələn, "yaxşı oğlanın bacısı bu cür geyinməz" deyib, gözünüzün qabağında kiminsə təsbeh oynatmayacağı nə məlum? Hamı öz ədalətini özü bərqərar etməyə qalxsa, sabah bu ölkədə döyülməyən müəllim, həkim, jurnalist, bank işçisi qalmaz. Tamam, türklər demiş, bizim cəmiyyətin "yumşaq qarnı"dır namus söhbəti. Fransada bir direktor bir müəlliməyə "sizin adınızın mənası oddur, ateşdir" desə, müəllimə işvəkarcasına "bonjuğ... O mon dyö" deyib qəhqəhə çəkə bilər. Əgər sözün deyiliş intonasiyası, deyilərkən seçilən üz ifadəsi, jestlər xoşuna gəlməsə, uzaqbaşı taciz davası aça bilər. Amma rəfiqəsinin qardaşı məktəbə gəlib, direktorun alnını partlatmaz.

Yenə də deyirəm, bu işin sonu yox. Barbar qanunları ilə cəmiyyətdə simpatiya qazanılmaz. Yoxsa, get-gedə bəyənmədiyimiz İrana, Türkiyəyə dönərik. Bəli, Türkiyəyə. Son illər qardaş ölkədə şortik geyindiyi üçün yolda döyülən, öldürülən neçə-neçə qız, qadın var, bilirsizmi? Ramazan ayında servis verən kafelərə basqın edən "qara kurtkalı" qaqaşlar dəstəsi barədə eşitmisizmi?..

Məsələ aydınlanmayıb, tərəflər daşlarını ətəyindən tam tökməyib hələ. Bu xəmir də çox su aparacaq. Amma xəmir hazır olub, çörək yapılana qədər... Lütfən, hər kəs papağını, məntiqini, ağlını qabağına qoyub bir daha düşünsün. Olayın rəngini tündləşdirmədən, gerçəkləri kontekstdən çıxarmadan, məsələləri başqa məcralara yönəltmədən. Zorakılıq pisdir, bağışlanmazdır. Bunu cəmiyyətə xoş bir davranış kimi yaymayaq. Yoxsa tezliklə qabağımıza çıxacaq...

# MRT və KT müayinələri orqanizmə zərərsiz deyil - həkimdən xəbərdarlıq

## Adil Qeybulla: "Xəstələri zərurət oldu-olmadı bu cür müayinələrə göndərmək doğru deyil"

**Daim inkişafda olan tibb sahəsində orqanizmdəki dəyişiklikləri, xəstəlikləri dəqiqləşdirmək üçün diaqnostik metoddan istifadə olunur. Bu metod vasitəsilə artıq xəstənin hansı orqanında və ya nahiyəsində problem olduğu müəyyənləşir, düzgün müalicə prosesi başlayır.**



Həkimlərin üstünlük verdikləri müayinə vasitələrindən biri də rentgendir. Rentgeni 1878-ci ildə alman fiziki Vilhelm Konrad Rentgen kəşf edib. Fizik ilk əvvəl X şüalarının təsirindən insanların sümük toxumasının ekranda açıq rəngdə, yumşaq toxumaların isə tünd kölgə şəklində göründüyünü müəyyənləşdirib. Daha sonra X şüaları yerləşdirilən cihazda alınan görüntülərlə insanın daxili orqanlarında əmələ gələn xəstəliklərin dəqiq diaqnozunu qoyub. Bu kəşf tibb üçün çox qiymətli hesab olunduğundan, alimin şərəfinə həmin X şüaları "Rentgen şüaları" adlandırılıb. 1901-ci ildə dahi fizik bu ixtirasına görə Nobel mükafatı alıb.

Hal hazırda bir çox hallarda ilkin diaqnozu dəqiqləşdirmək məqsədi ilə KT (kompüter tomoqrafiyası) və MRT (maqnit-rezonans tomoqrafiyası və ya nüvə-maqnit-rezonans tomoqrafiyası ) kimi dəqiq və müasir müayinələrdən istifadə olunur. KT zamanı rentgen şüalanma istifadə olunur. Tomoqrafın skaneri insanın bədəninin ətrafında fırlanaraq müxtəlif nöqtələrdən çoxsaylı rentgen şəkilləri çəkir. Daha sonra bu şəkillər kompüter vasitəsi ilə cəmləşir və işlənir ki, nəticədə müayinə olunan orqan və ya bədən hissəsinin 3-ölçülü təsviri alınır. MRT zamanı rentgen şüalanma deyil, güclü maqnit sahə istifadə olunur. Bu sahənin təsirindən insan orqanizmində olan hidrogen atomları maqnit sahəsinin istiqamətində "düzülür". Aparat elektromaqnit impulslari göndərir. Atomlar bu impulslara "cavab verir", siqnallar göndərir (buna "rezonans" deyilir). Bədənin müxtəlif toxumaları müxtəlif gücü olan rezonansları göndərir. MRT bu siqnalları toplayır və onlardan 3-ölçülü təsvirləri yaradır.

Bəs bu şüalar insan orqanizmi üçün zərərlidirmi? Hər ay neçə dəfə bu cür müayinələrdən keçmək olar?

"Yeni Müsavat"a danışan professor Adil Qeybulla bildirdi ki, MRT müayinəsinin keçirilməsində xüsusi bir məhdudiyyət yoxdur: "MRT ilə müalicə məsələsi də var. Ona görə də hətta zərurət yarandığı təqdirdə ay ərzində iki dəfə MRT etdirməkdə problem olmaz. Ancaq KT müayinə məhdudiyyətlidir. Çünki burada rentgen şüalanmadan istifadə edilir. Ona görə də bu müayinəni tez-tez etdirmək olmaz. MRT müayinəsi ilə KT müayinəsi tamamilə fərqlidir. Sadəcə olaraq, bədənində metal, ürəyində bəzi problemlər olanların MRT-yə girməsi məqsədəuyğun deyil. Bununla bağlı əks göstərişlər baş verir. Əgər sağlam adamdırsa, onun üçün problem olmaz".

A.Qeybulla söylədi ki, bütün müayinə metodlarının hamısı xüsusi testlərdən keçirilir: "Yəni ilk növbədə ekspertmentlərdə tətbiq olunur. Müasir müayinə metodlarının hər biri getdikcə təkminləşdirilir. Xəstəliklərin vaxtında aşkar olunmasına, incəliklərə qədər bəzi diaqnozların verilməsi, bu inkişafla bağlıdır. MRT-yə KT-yə biz kimləri göndəririk? O adamları göndəririk ki, onların artıq konkret şikayətləri var və nəyisə aşkarlamaq lazımdır. Yaxud xəstəliklə bağlı bir neçə əlamətlər var, dəqiqləşməyə ehtiyac varsa, bu zaman şəxs qeyd etdiyimiz müayinəyə göndərilir. Hesab edirəm ki, həkimlər zərurət oldu-olmadı xəstələri bu müayinələrə göndərməməlidir. Yəni bunun da konkret göstərişləri var. Ümumiyyətlə, biz dünyanın hər yerində olduğu kimi, protokollarla işləməyi bacarmalıyıq. Qərb, Avropa, Amerika, Türkiyə təbabətində xəstəliklərin diaqnostikası üçün konkret protokollar var. Biz də bu protokollara riayət etməliyik. Yəni bəzən təəssüflər olsun ki, xəstələrin bu müayinələrə vacib oldu-olmadı göndərilməsi faktlarına da rast gəlirik".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# İş adamının 73 min 500 dollarını alan şəxsin kriminal aləmlə əlaqələri var imiş - təfərrüat

**Bakıda iş adamına qarşı dələduzluq etməkdə təqsirləndirilən Gürcüstan vətəndaşının məhkəməsi baş tutub. Onun Azərbaycana qayıdarkən həbs edildiyi məlum olub. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Djambulat Alakhverdovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**




Hakim Şəkər Məmmədovanın sədrliyi ilə keçirilən prosesdə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşı Hətəm Əliyev ifadə verib. Şahid qismində dindirilən Hətəm Əliyev bildirib ki, Elvin Musayev İdarəyə müraciət edərək Djambulat Alakhverdov tərəfindən dələduzluğa məruz qaldığını deyib. Hətəm Əliyev əlavə edib ki, şikayət araşdırıldıqdan sonra Djambulat Alakhverdov İdarəyə dəvət edilib və ifadəsi alınıb. Daha sonra isə onun barəsində həbs qətimkan tədbiri seçilib. Djambulat Alakhverdov buna etiraz edib. İddia edib ki, o, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə dəvət edilməyib.

"Əvvəla mən dələduzluq ittihamı ilə razı deyiləm. Çünki mən bu işi eləməmişəm. Əgər eləsəydim, heç Gürcüstandan Azərbaycana qayıtmazdım. Mən bu işi yoluna qoymaq üçün gəlirdim. Elvin Musayev pulu Fuad Quliyevə verib. Elvin də Fuadı mənim vasitəmlə tanıyıb. Onları mən tanış etmişəm. Bu işi görə biləcəyini demişəm. Pulu da mən yox, Fuad Quliyev zöü alıb. Mən Gürcüstandan qayıtdım ki, bu problem həll edək, danışaq deyə. Məni sərhəddə saxladılar. Oradan Qazaxa polisə gətirdilər. Oradan da Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşlarına təhvil verildim. Məni döyməyiblər, təzyiq göstərməyiblər, amma bu işdə bəzi düz olmayan məqamlar var. Mən indi də razıyam ki, bu işi həll edək. Həbsdə qalmaq istəmirəm. Ona görə də İdarədə olanda pulu ödəyəcəyimi dedim, işi öz üzərimə götürdüm"- deyən Djambulat Alakhverdov dostu Fuaddan xəbər ala bilmədiyini deyib. Söyləyib ki, sonuncu dəfə Fuad Quliyevin Ukraynada olmasından xəbər tutub.

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşı Hətəm Əliyev bildirib ki, Djambulat Alakhverdov dindirilən zaman Fuad Quliyevin soy adını Alıyev kimi deyib. Buna görə də istintaq tərəfindən onun müəyyənləşdirilməsi çətin olub. Daha sonra isə Djambulat Alakhverdova Fuad Quliyevin şəkli göstərilib.

Djambulat Alakhverdov isə söyləyib ki, Fuadın soy adını Quliyev kimi bilib. Onun soy adının Alıyev olmasından saxlanılan zaman xəbər tutub: "Mənə Fuadın fotosunu göstərəndə bildim ki, odur. Mən bunu yalandan deməmişdim. Əgər bilsəydim əvvəlcədən deyərdim ki, öz işim də asan olsun".

Məhkəmədə məlum olub ki, axtarışa verilən Fuad Quliyevin kriminal aləmin nüfuzlu şəxsləri ilə yaxın əlaqələri var. İddia edilir ki, o, bu əlaqələrdən istifadə edərək zərərçəkmişin pulunu qaytarmaqdan yayınır. Djambulat Alakhverdov isə bu barədə heç bir söz deməyib. Elvin Musayevə dəymiş zərəri ödəməyə çalışdığını deyən Djambulat Alakhverdov həbsdə qalmaq istəmədiyini bildirib. Məhkəmədən xahiş edib ki, pulu ödəmək üçün ona vaxt verilsin və azadlığa çıxamasına kömək göstərilsin.

Məhkəmənin növbəti iclası noyabrın 27-nə təyin edilib. İttiham aktına əsasən, Gürcüstan vətəndaşı olan D.Alakhverdov azərbaycanlı biznesmen Elvin Musayevə qarşı dələduzluq edib. Belə ki, o, E.Musayevin etibarından sui-istifadə edərək, Gürcüstandan ona lazer aparatı gətirəcəyi vədini verib. D.Alakhverdov bunun müqabilində zərərçəkmişdən 73 min 500 dollar alıb. Lakin sonradan o, verdiyi vədə əməl etməyib. E.Musayevin şikayəti əsasında Azərbaycanda saxlanılan D.Alakhverdovun barəsində Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda) maddəsi ilə ittiham irəli sürülüb. Daha sonra onun barəsində həbs qətimkan tədbiri seçilib.

❑ **İlkin MURADOV,**
**Musavat.com**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 252 (7141) 26 noyabr 2018

**Başa çatmaqda olan 2018-ci ildə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri - Elmar Məmmədyarov və Zoqrab Mnatsakanyan arasında daha bir görüş keçirilə bilər. Məlumatlara görə, budəfəki təmasın gələn aya nəzərdə tutulan ATƏT-ə üzv ölkələrin XİN başçılarının illik toplantısı çərçivəsində, Minsk Qrupu həmsədrlərinin təşəbbüsü ilə reallaşması gözlənilir.**




# Qarabağın azərbaycanlı icması bəyanat yayıb

**"Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qanunsuz rejimin təmsilçisi kimi özünü təqdim edən Bako Saakyanın Rusiyaya "səfəri" ilə bağlı bəyanat yayıb.**




İctimai Birliyin Əlaqələndirmə Şurasının sədri, professor Elçin Əhmədov bəyanatı Azərtac-a şərh edərək bildirib ki, ABŞ, Fransa və Rusiya ATƏT-in Minsk qrupunun həmsədrləri kimi, münaqişənin nizama salınması üçün üzərlərinə götürdükləri öhdəliklərə zidd olaraq, Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qanunsuz rejimin təmsilçisi kimi özünü təqdim edən Bako Saakyanın öz ölkələrinin ərazisinə daxil olmasının qarşısının alınması üçün heç bir tədbir görmürlər.

"Özünü Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin "rəhbəri" kimi təqdim edən Bako Saakyanın 2017-ci ildə Belçikaya, cari ilin martında ABŞ-a, noyabrında isə Fransaya, ABŞ-a və Rusiyaya bir-birinin ardınca səyahətləri hər şeydən əvvəl beynəlxalq hüquq prinsiplərinə tamamilə ziddir və ATƏT-in müvafiq mandatına, vasitəçilik öhdəliklərinə də uyğun deyil. Bako Saakyan adlı şəxs Azərbaycanın işğal altında olan ərazilərində hərbi gücdən istifadə nəticəsində formalaşdırılmış oyuncaq, qeyri-qanuni rejimin təmsilçisidir. Onun xarici, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrə səyahət etməsinə imkan verilməsi işğal, təcavüz və terrorizm əməlləri nəticəsində yaradılmış rejimin təşviqinə xidmət edir. Minsk Qrupunun həmsədr ölkələri belə addımlarla ayri-seçkiliyə əsaslanan siyasət yürüdərək etnik təmizləməyə məruz qalmış Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının hüquqlarının pozulmasına göz yumurlar... Biz Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qanunsuz rejimin təmsilçisi kimi özünü təqdim edən Bako Saakyanın Minsk Qrupunun həmsədrləri olan ölkələrə (Fransa, ABŞ, Rusiya) "səfər"lərini Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsindən olan məcburi köçkünlər, yeni, 80 mindən çox azərbaycanlı adından kəskin şəkildə pisləyir, eləcə də hiddətimizi ifadə edir, ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin bu addımını Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə qarşı hörmətsizlik kimi qiymətləndiririk".



# Rusiyanın Qarabağ dilemması - Kremlin iki yolu var

## Rəsmi Moskva ya sülh prosesinə, nəhayət, ciddi təkan verməlidir; ya da...; **politoloq:** "Həmişəki kimi, prosesi yenə Rusiya özü idarə edir..."

Lakin bu formatda növbəti bir görüşün də səmərə verməyəcəyi bəri başdan, kifayət qədər aydındır. Çünki əksər politoloqların haqlı olaraq hesab etdikləri kimi, Dağlıq Qarabağ konflikti Ermənistanın yox, Rusiyanın problemidir. O anlamda ki, Moskva istəsə, onun həllini qısa zamanda sürətləndirər - ya özü real diplomatik təşəbbüs göstərməklə, ya da münaqişəyə müdaxilə etməyib Azərbaycana öz ərazilərini işğaldan azad eləməyə göz yummaqla, yəni neytral qalmaqla. Hər iki halda Kremlin istəyi, rus demiş, "dobro"su lazım.

*****

Təəssüf ki, Rusiya nə bu, nə də digər varianta hazır görünür. Ermənistanda hakimiyyət dəyişikliyindən sonra isə Moskva belə görünür k, gözləmə mövqeyi tutub - o cümlədən Qarabağ məsələsində. Rusiya ən azından, işğalçı ölkədə dekabrın 9-da keçiriləcək növbədənkənar parlament seçkilərinin nəticələrini gözləyir - hansı seçkilərdə ki, Paşinyan və tərəfdarlarının qələbəsi şübhə doğurmur.

Lakin seçkidə qələbə hələ hər şey demək deyil. Əksinə, həll olunmamış Dağlıq Qarabağ məsələsi daxil, ən ağır problemlərin birmənalı və "legitim" şəkildə Paşinyan və komandasının çiyninə qoyulması deməkdir. Görək, Ermənistanın hazırkı baş nazir əvəzinin seçkilərdən sonrakı Qarabağ ritorikası necə olacaq: yenə davakar xarakterli olacaq, yoxsa, nəhayət, real müharibə təhlükəsini ciddiyə alıb da konstruktiv mövqeyə köklənəcək?

Lakin aydın məsələdir ki, ikinci varianta İrəvan yalnız xarici təzyiq nəticəsində gedə bilər. Bunu isə Rusiya və ya Qərb edə bilər. Xüsusən də söhbət münaqişənin çözümü üçün əlində real rıçaqları olan Rusiyadan gedir. Bəs Rusiyadan bunu gözləmək olarmı?

*****

Sabiq dövlət müşaviri Qabil Hüseyni bu xüsusda elə də nikbin deyil. "Mən hələ də özümü inandıra bilməmişəm ki, Rusiya Qarabağla bağlı beynəlxalq hüquq normalarına uyğun həll variantına getməyə hazır olsun". "Yeni Müsavat"ın məlumatına görə, bunu o, axar.az-a müsahibəsində deyib.

Öz fikrini politoloq belə əsaslandırıb: "Əvvəla, Rusiyada çox güclü erməni lobbisi var. Bu lobbiyə Rusiyanın xarici işlər naziri Sergey Lavrov - Kələntəryan başçılıq edir. Rusiya XİN Aparatında da erməni diasporu nümayəndələri az deyil. Hələ də Sankt-Peterburq, Kazan görüşlərini çox zaman "Lavrov planı" deyilən planın adı ilə əlaqələndirməyə çalışırlar. Bu planda isə 5 rayonun Azərbaycana qaytarılması və Dağlıq Qarabağa aralıq statusun verilməsi fikri öz əksini tapır. Faktiki olaraq, Dağlıq Qarabağın Azərbaycanın tabeçiliyindən çıxarılmasını nəzərdə tutan fikirlər yer alır. Ona görə də hələ ki Rusiyanın təkliflərində diqqətçəkən məqam yer almır".

Politoloqun sözlərinə görə, Rusiya hər zaman öz istiqamətini nədənsə Ermənistan tərəfə çevirir: "Özü də bir balaca həll variantı ilə bağlı Qərb Rusiyanın mövqeyindən fərqli mövqe ortaya qoyanda o saat belə bir fikir ortaya atırlar ki, tərəflərin özləri razılaşmalıdır. Bu da məsələnin həllinə köməklik etmir. Atəşkəsdən 25 ilə yaxın vaxt keçib. Bu müddət ərzində yeni bir nəsil formalaşıb. Hamı görür ki, bu prosesdə Rusiya iştirak edib və indi də bu prosesi özü idarə edir. Ermənistanda bütün hakimiyyət dəyişiklikləri də Rusiyanın xeyir-duası ilə həyata keçirilib. Ermənistanın sərhədləri rus sərhədçiləri tərəfindən qorunur və burada Rusiyanın 2 hərbi bazası var. İşğalçı ölkədəki müəssisələrin çoxu borc müqabilində Rusiyanın nəzarətinə keçib, yəni bu ölkə faktiki surətdə suverenliyinin böyük bir hissəsini Rusiyaya bağışlayıb. Bəzən hətta mətbuatda şərhçilərin belə fikirlərinə rast gəlmək olur ki, Qarabağ Ermənistanın deyil, Rusiyanındır. Rusiya hansı sərəncamı versə, o da həyata keçəcək. Yeni Dağlıq Qarabağa Rusiyada bəzi siyasi dairələr Abxaziya və Osetiyaya baxdıqları kimi az qala öz torpaqları kimi baxırlar".

Ekspertin fikrincə, Dağlıq Qarabağla bağlı məsələlərə Qərbin, xüsusilə, ABŞ-ın müdaxiləsi güclənsə, bu, həll variantında müəyyən rəqabət mühiti yarada bilər. "Bu mühitdə isə ola bilsin ki, status-kvonun dəyişdirilməsi ilə bağlı müəyyən ideyalar özünə yol açsın. İndiki şəraitdə həmsədrlərdən biri Fransadır. Bu ölkə tam etibarsız və kifayət qədər ermənipərəst mövqe tutan bir dövlətdir. Rusiya haqqında danışdıq, ABŞ isə mübaliğəli mövqe tutan dövlətdir. Düzdür, Azərbaycanın ərazi bütövlüyü ilə bağlı ABŞ-dan qəti hansısa fikir gündəmə gəlmir, amma 7 rayonla bağlı ABŞ-ın fikirləri qəti və birmənalıdır".

*****

Yaranmış durumda Qarabağ probleminin həll perspektivi baxımından Azərbaycanın hərbi və iqtisadi qüdrətinin, həmçinin qardaş Türkiyə ilə birgə işğalçı Ermənistanın blokadasının daha da sərtləşdirilməsi xüsusi önəm daşıyır və daşıyacaq. Əgər erməni xalqı görsə ki, "Qarabağ klanı" yox, özünün inqilab nəticəsində formalaşdırdığı legitim hakimiyyət də maksimalist tələbləri, "miatsum" ideyasını reallaşdırmaq gücündə deyil və ölkə uçuruma yolunu davam edir, o zaman ermənilərin ən çox ümid bəslədiyi, yeganə şans saydığı Ermənistanın "demokratik hökuməti" üçün Azərbaycan və Türkiyə ilə dil tapmaqdan savayı yolu qalmayacaq.

Odur ki, 9 dekabr seçkilərinin nəticələrini, daha dəqiqi, ondan sonra Ermənistanın yeni hökumətinin izləyəcəyi Qarabağ siyasətinin nədən ibarət olacağını gözləyək. Əgər bu siyasət Sərkisyan-Köçəryan tanediminin siyasətindən ciddi fərqlənməyəcəksə, o zaman İrəvan 2016-cı ilin aprel sindromundan da fəlakətli nəticələrə hazır olmalıdır. Çünki Azərbaycan problemin dinc həlli naminə işğalçı tərəfə sonsuz sayda düşünmək fürsəti verə bilməz. Verməyəcək. Bu seçkilər son şansdır. Təkcə Paşinyan üçün deyil, bütövlükdə erməni xalqı üçün...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# “Türkiyə və Rusiyanın ortaq Qarabağ prosesinə ən ağır zərbəni Lavrov vurub”

## Qabil Hüseynli: “ABŞ-a Dağlıq Qarabağ probleminin həlli hava-su kimi lazımdır”



**Türkiyə prezidentinin sözçüsü İbrahim Kalın Dağlıq Qarabağ probleminin həlli üçün Rusiya ilə Türkiyə arasında çox ümidverici müzakirələr getdiyini, lakin hansısa qüvvənin müdaxiləsi nəticəsində prosesin dayandığını açıqlayıb. Bu açıqlamanın kifayət qədər yüksək ranqlı şəxs tərəfindən verilməsi həqiqətən də ciddi prosesin getdiyinə şübhə yeri qoymur. Prosesin dayanmasına səbəb olan qüvvənin konkret kim və ya hansı dövlət olmasını isə Kalın açıqlamayıb.**

Politoloq Qabil Hüseynli bu barədə “Yeni Müsavat”a şərhində bildirib ki, Türkiyə ilə Rusiya arasında Qarabağla bağlı prosesin getdiyi bilinirdi: “Amma bu prosesdə əslində Rusiya səmimi deyildi. Sadəcə olaraq, "Türk axını" layihəsinin həyata keçirilməsi, S400 raketlərinin Türkiyəyə satılması və sair məsələlərdə Rusiya istəyinə nail olmaq üçün Türkiyənin bəzi istəklərinə pozitiv reaksiyalar, vədlər verə bilərdi. Amma bu vədlər səmimi deyildi. Zənnimcə, prosesin başında Rusiyanın xarici işlər naziri Sergey Lavrov dayanırdı və o bu prosesdə sadəcə, Rusiyanın müəyyən qayğılarının həllindən sonra prosesə elə Rusiya tərəfindən Lavrovun simasında “yox” deyildi. Bəhanə isə bu oldu ki, guya Dağlıq Qarabağ məsələsi beynəlmiləlləşib, beynəlxalq güclərin nəzarəti altındadır, bu, tək Rusiyanın sərəncam verə biləcəyi bir şey deyil, bu, mütləq ATƏT, BMT və digər böyük güclərlə razılaşdırılmalıdır. Beləliklə, məncə prosesə ən ağır zərbəni Lavrov vurub. Bundan başqa Rusiyada güclü erməni lobbisi var. Bu lobbi yəqin ki, Kremlin təsir altına düşə biləcək yerlərini bilirlər və o səbəbdən də təkcə Lavrovun vasitəsilə deyil, digər yollarla da Putinə yol tapa bildikləri istisna deyil. Erməni lobbisi istisna deyil ki, Türkiyə ilə Dağlıq Qarabağ məsələsində razılaşmalar olacağı halda Ermənistanın Rusiyanın əlindən çıxacağı kimi rəy yarada biliblər".

Q.Hüseynlinin sözlərinə görə, Rusiya tərəfi nə zaman Dağlıq Qarabağla bağlı normal bir prosesin dayanmasını istəyibsə, “Kompromis variantlar münaqişə tərəflərinin özləri öz aralarında tapmalı və razılığa gəlməlidirlər” kimi açıqlamalar veriblər. Yəni Dağlıq Qarabağ məsələsinin həllinə əngəl yaratmaq istəyəndə çoxsaylı bəhanələr irəli sürürlər. Böyük ehtimalla bu dəfə də Türkiyə ilə aparılan prosesi dayandırmaq üçün yuxarıda qeyd etdiyimiz və ya başqa hansısa bəhanələrlə istəklərinə nail olublar. Bu dəfə rosesin alına bilməyəcəyi də ilk dəfə Sergey Lavrov tərəfindən ifadə olunmuşdu.

Rusiya onu da bilirdi ki, Türkiyənin iştirakı Dağlıq Qarabağ məsələsinin həlli həm də bölgədə Türkiyənin təsirinin ciddi şəkildə artması demək olacaq. Bunu isə başda Sergey Lavrov olmaqla, Moskva istəmir".

Politoloq vurğuladı ki, bir çox sadə insanlar İbrahim Kalının adını çəkmədiyi qüvvənin ABŞ olduğunu zənn edir, lakin bu yanlışdır: “ABŞ bölgəyə nüfuz etmək, öz təsirini gücləndirmək istəyir. Bunun üçün də ABŞ-a Dağlıq Qarabağ probleminin həlli hava-su kimi lazımdır. Düzdür, o, problemin həllində hələ ki, bütün kartları açmasa da, Rusiyadan fərqli olaraq daha cəlbedici, daha beynəlxalq hüquq normalarına uyğun olan həll variantını təklif edir - Dağlıq Qarabağın ətrafındakı işğal olunmuş rayonlardan erməni qoşunlarının çıxarılması kimi təklifi irəli sürür. Dağlıq Qarabağ ətrafındakı işğal olunmuş rayonlardan erməni qoşunları çıxarılmalıdır fikrini Ermənistanda ABŞ-ın səfiri də, ABŞ prezidentinin köməkçisi Con Bolton və digər amerikalı rəsmilər bu yaxınlarda açıq dilə gətirdilər. Bununla ABŞ Azərbaycanın 7 rayonun Ermənistan tərəfindən işğal edildiyini rəsmən dilən gətirmiş oldu və işğala son qoyulmasını istədiyini ifadə etdi. Bu mövqeni ATƏT-in Minsk qrupunun digər iki həmsədri olan ölkədən eşidə bilmirik. Belə olduğu halda Amerika münaqişənin həlli istiqamətində Türkiyə ilə aparılan prosesə mane olmaq istəməzdi. Mən bu fikirlərlə ABŞ-ın mövqeyinin tam olaraq bizim arzularımıza, maraqlarımıza uyğun gəldiyi iddiasında deyiləm, amma məsələ burasındadır, bu gün Amerika Fransadan da, Rusiyadan da səmərəli həll variantı təklif edir və mövqe nümayiş etdirir”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

**İrana qarşı daha ağır sanksiyaların qüvvəyə minməsindən 20 gün ötdü. Bu günlər ərzində sərt sanksiyaların cənub qonşumuza, ən əsası, ölkəmizə təsirlərinin olub-olmadığı istiqamətində ekspertlərin rəyləri müxtəlifdir. Ölkələrarası ticarət dövriyyəsinin 20 gün ərzində necə olduğu barədə də fərqli fikirlər səslənir.**



# İrana qarşı ağırlaşan sanksiyaların 20 günü - Azərbaycana hansı təsirlər var?

## Ekspertlərə görə, sanksiyalar iki ölkə münasibətlərinə təsirsiz ötüşməyəcək

Ötən həftəsonu isə Azərbaycanın İrana vəd elədiyi 500 milyon dollar kreditin ertələnə biləcəyi barədə iqtisadiyyat naziri Şahin Mustafayev anons verdi. Rəsmi Bakının ABŞ-la ehtiyatlı siyasətə üstünlük verdiyi üçün kredit verməyi təxirə saldığı bildirilir. Bundan sonra Azərbaycanın ənənəvi olaraq yürütdüyü balanslı siyasətə sadiq qalacağı qeyd olunur. Bu xüsusda “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin taleyinin sanksiyalar dövründə necə olacağı da müzakirələr sırasındadır.

Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu ABŞ-ın İrana qarşı sanksiyalarının var gücü ilə işlədiyini söylədi: “İranda iqtisadi çətinliklər var. Elə Vaşinqtonun da məqsədi budur ki, İranın iqtisadi və sosial durumu ağırlaşsın ki, Tehran Suriya, Livan, Yəmən və digər dövlətlərdəki tərəfdarlarına ciddi dəstək verə bilməsin. Ancaq Tehranın bu siyasətdən asanlıqla əl çəkəcəyini düşünmürəm. Tehran bir çox dövlətdəki silahlı qruplaşmaları məhz ona görə dəstəkləyir ki, ABŞ və Səudiyyə Ərəbistanı öz maraqlarını İran sərhədinə yaxınlaşdıra bilməsinlər. Bu mübarizədə kimin qalib gələcəyini yaxın aylar və ya illər göstərəcək. Tehranda ona ümid edirlər ki, bir gün Donald Trampın yerinə başqası ABŞ prezidenti seçiləcək və o keçmiş prezident Barak Obamanın siyasətinə qayıdacaq. Məsələn, bu gün ABŞ-ın prezidenti Hillari Klinton olsaydı, o, Obamanın xarici siyasətini davam etdirəcək və İranla nüvə razılaşmasına riayət edəcək, sanksiyalar da olmayacaqdı. Tramp Administrasiyası İran mövzusunda Azərbaycana təzyiq etmir. Bunu ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Bolton Bakıya səfəri zamanı rəsmilərimizə demişdi. Buna baxmayaraq, Azərbaycanın İrana verməyə planlaşdırdığı 500 milyon dollarlıq kredit məsələsində qeyri-müəyyənlik yaranıb. Məsələn, Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev noyabrın 23-də keçirdiyi mətbuat konfransında belə bir fikir işlətdi: "Mövcud beynəlxalq siyasi vəziyyətdən xəbərdarsınız. Bu səbəbdən də bu yolun tikintisi ilə bağlı danışıqlar, müzakirələr hələ davam etdirilir". Böyük ehtimalla bu fikir İranla əlaqədar işlənib. Mən nazirin bu cümləsini belə anladım ki, Azərbaycanın İrana verməyi planlaşdırdığı 500 milyon dollar kredit hazırki şərtlər daxilində bir az ləngidə bilər. Hazırki şərtlərin sanksiyalarla əlaqəli olduğunu bilməyən yoxdur. Əgər Azərbaycan həmin krediti İrana birbaşa verməkdə çətinlik çəkirsə, ABŞ beynəlxalq bank sistemində İrana pul köçürmələrinə nəzarət edirsə, həmin maliyyə vəsaitinin üçüncü dövlət vasitəsilə də İrana çatdırılması mümkündür. Fikrimcə, bu varianta ABŞ-da etiraz etməz. Vaşinqton Tehrana qarşı sanksiyalar tətbiq etsə də, Rəşt-Astara dəmiryolunun tikintisi Amerikanın regional maraqlarına zidd deyil. Başlıcası odur ki, “Şimal-Cənub” nəqliyyat dəhlizi üçün Azərbaycan öz ərazisində dəmiryolunu inşa edib, Yalama istiqamətində dəmiryolu infrastrukturu yenilənib, Astaraya qədər olan yolda işlər yekunlaşıb. İran tərəfi isə öz ərazisində Qəzvin-Rəşt dəmiryolu xəttinin tikintisini demək olar ki, başa çatdırıb. Yəni “Şimal-Cənub” dəhlizi işlək vəziyyətdədir. Yetər ki, sanksiyalar dövründə dövlətlər İranla və İran üzərindən daşımaçılığı artırmağa həvəsli olsunlar".

İqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, sanksiyalar İranın digər dövlətlərlə iqtisadi münasibətlərinə ciddi təsir edir: “Burada əsas məsələlərdən biri enerji və neft sektorunda sanksiyaların tətbiq edilməməsi oldu ki, bununla 8 ölkəyə İrandan neft almağa və enerji məsələsində əməkdaşlıq etmək üçün keçid dövrü tanındı. Burada Amerika ümid edir ki, İranla 6 ay ərzində anlaşma mümkün olacaq və ümumi bir məxrəcə gəlmək mümkündür. İranda bank sistemində ciddi problemlər var. 50 bankın beynəlxalq sistemdən ayrılması məsələsi gündəmə gəlib. İran banklarına və maliyyə qurumlarına ciddi sanksiyalar tətbiq olunacaq. Artıq bu proses başlayıb. Bu baxımdan sanksiyaların İrana təsirləri ciddidir. Azərbaycan-İran münasibətlərinə gəlincə, ticarət dövriyyəsi əsasən, sərhədyani ticarətdən ibarət idi. Böyük müqavilələr iki istiqamətdən həyata keçirilirdi. ”Cənub-Şimal" dəmir yolu dəhlizinin tikintisi və istifadəyə verilməsi və digər məsələ isə Azərbaycan ərazisində İranın iştirakı ilə dərman zavodunun açılması idi. Bununla bağlı ilkin razılaşmalar və protokollar var idi. “Cənub-Şimal” dəmiryolu dəhlizində gözlənildiyi kimi, ciddi problemlər yaşandı. Azərbaycanın 500 milyonluq krediti ertələməsi də bunun sübutudur. Rəsmi Bakı bu işi görsəydi, ABŞ tərəfindən ciddi sanksiyalarla üzləşə bilərdi. Ona görə də çox ehtiyatlı bir mövqe tutuldu. Con Boltonun səfərindən sonra bu mövqe daha da dəqiqləşdi. Azərbaycan hələ ki bu layihədən bir qədər kənarda qalmağa üstünlük verib. Digər layihələrlə bağlı hələ ki konkret qərarlar qəbul olunmayıb. Amma böyük ehtimal ki, nəzərdə tutulan dərman istehsalı da dayandırılacaq. Neftçaladakı avtomobil zavodu ilə bağlı da gələcəkdə, ola bilsin ki, müəyyən problemlər yaşansın. Burada İrandan gətirilən ehtiyat hissələrinin orada yığılması prosesi baş verirdi. Burada axsamaların ola biləcəyi ehtimalları böyük görünür. Ümumilikdə, İran sanksiyaları böyük həcmdə Azərbaycan iqtisadiyyatına təsir etmir. Çünki Rusiya və Avropa Birliyinə baxdıqda ticarət dövriyyəsi o qədər də böyük deyil. Amma hər halda bəzi layihələr gecikdirilə, bu da Azərbaycan iqtisadiyyatına müəyyən dərəcədə təsirlər edə bilər. Ən böyük təsirlərdən biri dolayı təsirlərdir. İranın iş adamlarının mövcud durumla əlaqədar pullarını Azərbaycana gətirib, yerli məzənnəyə uyğun şəkildə əvvəl manata, sonra da dollara çevirib ölkədən çıxarmaq istəkləri artıb. İş adamlarının məhsullarını ölkəmizə gətirmək istəklərinin də artacağı reallıqdır. Bu baxımdan valyuta bazarımıza müəyyən təsirlər ola bilər. Bütün bunları ümumiləşdirib deyə bilərik ki, tətbiq olunan sanksiyalar Azərbaycan-İran münasibətlərinə təsirsiz ötüşməyəcək. “Şimal-Cənub” Nəqliyyat Dəhlizinin bundan sonra necə olacağına gəlincə, hər şey Amerika-İran münasibətlərindən asılı olacaq. Düşünmürəm ki, sanksiyalar fonunda Azərbaycan risk edib nəqliyyat dəhlizinin maliyyələşdirilməsində iştirak etsin. Bu az məbləğ də deyil, yarım milyard dollarlıq məbləğdən söhbət gedir. ABŞ-İran münasibətləri düzəlməyənə qədər bu layihə kənarda saxlanılacaq".

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

Yeni Müsavat
N 252 (7141) 26 noyabr 2018

# Əlilliyi olan şəxslər: fiziki məhdudiyyətdən sosial inteqrasiyaya

## Dəstək olaq, amma əngəl olmayaq ...

**"Bizlər üçün həyat çox çətindir. Əgər bir məqsədimiz yoxdursa, yaşamağın da mənası olmur. Sağlam insanlar üçün hər şey əlçatandır. Ancaq biz ən adi işdə belə çox böyük çətinliklərlə üzləşirik. Bu mənada, boccia idman növü mənim həyatımda çox şeyi dəyişdi. İndiyədək elə bilirdim ki, heç kimə lazım olmayan, əlindən heç bir iş gəlməyən adamam. Ancaq bu idman növü üzrə hər dəfə respublika birincisi olaraq həyata daha da möhkəm bağlandım. Özümü təsdiq etdim, var olduğumu hiss etdim".**

Bu sözlərin müəllifi uşaq yaşlarından əlil arabasına məhkum olan, Boccia idman növü üzrə 4 qat ölkə çempionu, 25 yaşlı Sona Ağayevadır. 1993-cü il iyulun 14-də Sabirabad rayonunda anadan olan qəhrəmanım serebral iflic xəstəsi olduğundan heç zaman ayağa durub yeriyə bilməyib. Həmyaşıdlarından fiziki baxımdan geri qaldıqca həyatdan küsən, özünə qapanan Sonanı boccia idman növü ilə tanışlığı yenidən aktiv həyata qaytarıb: "Kənd yerində, kiçik bir cəmiyyətdə böyüdüyüm üçün əlilliyim mənə böyük bir dərd idi. Ətrafıma baxırdım ki, hamı sağlam, hamı ayaq üstə... Bir nəfər də mənim kimi insan yox idi. Elə bilirdim ki, yer üzündə yeganə əlil mənəm. Daha sonra 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzinə gəldim və burada ilk olaraq xalçaçılıq peşəsinə yiyələndim. Daha sonra hazırda Boccia İdman Federasiyasının baş katibi olan İlham Məhərrəmovun dəvəti ilə bu idman növündə məşqlərə başladım".

### "Qalib gəldikcə bəzən əlilliyimlə fəxr edirəm..."

Qəhrəmanım peşəkar idmana başladığı ilk gündən qələbələri ilə hər kəsi təəccübləndirməyi bacarıb: "İlk gəlişimdə birincilik qazandım və daha sonra milli komandaya daxil oldum. Növbəti yarışlarda da 4 dəfə ardıcıl olaraq birinci yerin qalibi oldum. Noyabrın 22-də keçirilən V "Seni Cup" turnirinin də qalibi oldum. Boccia mənim üçün böyük bir uğurdur. İdmançı adını daşımaq çox qürurverici hissdir. Hər dəfə qalib olmaq, Azərbaycan himninin sənin üçün səslənməsi o qədər gözəldir ki, sözlə izah edə bilmirəm. Bu uğurlarıma görə məşqçim İlham Məhərrəmova borcluyam".

Sona artıq əvvəlki kimi, fiziki məhdudiyyətli olmağını özünə dərd etmir: "Onlarla fiziki məhdudiyyətli gəncləri gördükcə anladım ki, mən tək deyiləm. İndi bunu özümə dərd etmirəm. Hətta əlilliyimlə fəxr etdiyim vaxtlar da olur. Çünki əli-ayağı sağlam olan, ancaq ömrünü lazımsız işlərə sərf edən, mənasız həyat yaşayan çox insanlar görürəm".

Qeyd edək ki, boccia idman növü dünya paralimpiya tarixində 34 ildən çoxdur ki, mövcuddur. 1984-cü ildən paralimpiya oyunlarına daxil edilib. 34 il ərzində populyarlıq qazanan boccia idman növü 50 ölkədə tətbiq olunur . Azərbaycan idmanı üçün yenilik olan bocciada bütün ağır kateqoriyalı, yəni uşaq serebral iflici, əzələ distrofiyası, beyin travması, dayaq-hərəkət aparatının pozulması əlillik dərəcəsi olan uşaqlar, gənclər və yaşlılar öz güclərini sınaya bilirlər. Professional idmançı olmaqla yanaşı, boccia idman növü fiziki güclə bərabər zehni əmək də tələb edir. Buna görə həm də reabilitasiya xarakteri daşıyır.

### "Boccia ilə həyata yenidən başlamışam"

Boccianın paralimpiyaya qazandırdığı idmançılardan biri də fiziki məhdudiyyətli olan 24 yaşlı Zaur Veysəlovdur. O , bu ilin 22 noyabr tarixində Abşeron rayonunda keçirilən V "Seni Cup" turnirində BS4 kateqoriyası üzrə Ukraynanın boccia üzrə idman ustası Artyom Kolinkoya qalib gələrək dostluq yarışının birincisi olub.




Qəhrəmanım sosial adaptasiya ilə bağlı çətinlikləri aşmasında bu idman növünün böyük rol oynadığını qeyd edir. 1994-cü ildə Göyçay rayonunun Ləkçıplaq kəndində doğulan Zaur 12 yaşına kimi tam sağlam olub. Lakin sonradan yaranan əzələ zəifləməsi onun normal yeriməsinə maneə yaradıb. Əlil arabasına məhkum olan yeniyetməyə miopatiya diaqnozu qoyulub. Boccia ilə 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzinə gəldikdən sonra tanış olub. İlham Məhərrəmovun dəvəti ilə məşqlərə başlayan Zaur 5 ay öz üzərində çalışdıqdan sonra milli komandaya cəlb olunub. Bu ilin oktyabr ayında İtaliyadakı çempionata qatılan qəhrəmanım komanda şəklində bürünc medala sahib olub.

Zaur deyir ki, boccia onun həyatında dönüş nöqtəsi olub: "Boccia idman növündə özümü təsdiq etməyim məni çox dəyişdi. Əvvəllər daha çox evdə olur, özümə qapanırdım. Burada isə artıq aktiv həyata başlamışam, fiziki məhdudiyyətli gənclər arasından çoxlu dostlarım var. Sanki həyata yenidən başladım. Bütün fiziki məhdudiyyətli gəncləri Boccia ilə məşğul olmağa dəvət edirəm".

### Həm sosial , həm də fiziki reabilitasiya üçün boccia ...

Boccia idman növünün ölkəmizdə inkişaf tarixçəsinə gəlincə, bu haqda bizə Azərbaycan Boccia İdman Federasiyasının baş katibi, Arabaçı TV-nin rəhbəri, Qarabağ qazisi İlham Məhərrəmov məlumat verir. Əvvəlcə, bu paralimpiya növünün özəllikləri ilə tanış olan İlham Məhərrəmov 2013-cü ildə Milli Paralimpiya Komitəsinə müraciət edərək boccia idman növünü təbliğ etməyə başlayır. Bu işdə ona ən böyük dəstəyi isə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva verir: "Komitənin dəstəyi ilə boccianın təbliğinə başladıq, bu idman növü üzrə milli komanda yaratdıq. Təşkilatlanmaq və daha da inkişaf etmək üçün bizim maddi dəstəyə ehtiyacımız var idi. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə bu ilin mart ayında Azərbaycan Boccia İdman Federasiyasını yaratdıq. Bir ay öncə isə İtaliyada keçirilən açıq regional çempionata qatıldıq. Orada 15 Avropa ölkəsi arasında bir qızıl, 3 bürünc medal qazandıq. Ölkəmizdə isə ilk dəfə 2013-cü ildə "Seni" firmasının dəstəyi ilə respublika turniri keçirdik. Bu ilin noyabrın 22-də isə həmin firmanın dəstəyi ilə artıq V "Seni Cup" turniri keçirildi. Yarışda ölkəmizin müxtəlif regionlarından olan 70-ə yaxın fiziki məhdudiyyətli idmançı iştirak etdi. Bildiyiniz kimi, boccia idman növü 5 kateqorioya üzrə həyata keçirilir. Hər kateqoriya üzrə 3 nəfər olmaqla, ümumilikdə 15 nəfər qalib oldu. Ukraynanın boccia idman növü üzrə idman ustası Artyom Kolinko da turnirə qatılmışdı. BS4 kateqoriyası üzrə bizim çempionumuz Zaur Veysəlov onu məğlub edərək dostluq yarışının qalibi oldu".

5 ildir ki, İlham Məhərrəmov məhz fiziki məhdudiyyətli şəxsləri bu idman növünə cəlb edir. Hazırda 5 kateqoriya üzrə 17 regiondan 100 dən çox fiziki məhdudiyyətli şəxs bu idman növü ilə məşğul olur. Boccia idman növünün üstünlüyü odur ki,onunla nəinki ayağını, hətta əllərini hərəkət etdirə bilməyənlər də məşğul ola bilər. İndi bu gənclərin ən böyük arzusu 2020-ci ildə keçiriləcək Tokio Paralimpiya oyunlarında iştirak etməkdir.

İlham Məhərrəmovun sözlərinə görə, əlillərin cəmiyyətə inteqrasiya etməsində, sosial həyata başlamasında boccia idman növü ən gözəl vasitədir: "Fiziki məhdudiyyətli insanlar bizim mərkəzə gəldikdən sonra qısa müddətdə biz onlarda müsbət istiqamətdə baş verən dəyişiklikləri görə bilirik. Boccia ilə məşğul olmağa başladıqdan iki həftə sonra həmin insanların rəngi durulur, üzü gülür, həyata marağı artır, insanlarla kinlə-nifrətlə deyil, mehribancasına danışırlar. Bizə qatılan gənclər var ki, bir neçə gündən sonra özləri bunu etiraf edirlər. Bildirirlər ki, biz ilk dəfə burada özümüzü cəmiyyətə yararlı insan kimi hiss etdik. Valideynləri də etiraf edir ki, həmin uşaqlar evdə yalnız televizor və ya kompüter qarşısında günlərini keçirir, sosial həyatdan tamamilə uzaq olurlar. Bununla da, özlərinə qapanırlar, doğmalarına qarşı aqressiv davranırlar, həm ətrafdakıların psixologiyasına mənfi təsir edir, həm də özləri psixoloji zərbə alırlar".








Qeyd edək ki, hazırda Azərbaycanda əlilliyi olan şəxslərin sayı 620 min nəfər yaxındır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin insanların həm sosial təminatı, məşğulluğunun təmin edilməsi, eləcə də fiziki və peşə rebilitasiyasına cəlb edilməsi istiqamətində iş aparılır. Əlilliyi olan şəxslər mərhələli şəkildə dövlət tərəfindən mənzil, minik avtomobili, digər reabilitasiya vasitələri, bərpa-müalicə xidməti, dərman pereparatları ilə təmin edilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "2017-ci ildən əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi və reabilitasiyası Proqramı" icra olunur. Eləcə də, 1 saylı Sağlamlıq imkanları məhdud gənclərin Peşə Reabilitasiya Mərkəzində 260 nəfərə yaxın fiziki məhdudiyətli gənc müxtəlif hazırlığı kurslarına cəlb olunub.

Ölkəmizdə fiziki məhdudiyyətli vətəndaşların hüquqları "Əlillərin sosial müdafiəsi haqqında" qanunla qorunur. Bundan başqa, Azərbaycan BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" 13 dekabr 2006-cı il tarixli Konvensiyasını 2 oktyabr 2008-ci ildə ratifikasiya edib.

Ancaq təbii ki, qəbul edilən dövlət proqramları, qanunlar və fiziki məhdudiyyətli vətəndaşların reabilitasiyası üçün görülən tədbirlər bu işin bir hissəsidirsə, ən önəmli məqam cəmiyyətin onlara münasibətinin dəyişməsidir. Biz işlətdiyimiz ifadələrdə, davranış və yanaşmalarımızda həssas olmalı, hətta baxışlarımızla belə onları incitməməli, cəmiyyətdən uzaq salmamalıyıq. Onların da cəmiyyətin bərabərhüquqlu üzvləri olduğunu unutmamalı, sosial adaptasiya prosesində dəstəyimizi əsirgəməməliyik.

Dövlət və vətəndaş cəmiyyəti də öz növbəsində fiziki məhdudiyyətli vətəndaşların təhsilə cəlb olunmasını, ali və orta ümumtəhsil müəssisələrində onların rahat hərəkətini təmin etməlidir, müvafiq infrastrukturun yaradılmasına, müxtəlif peşə bacarıqlarına malik olanların işlə təmin edilməsinə çalışmalıdır. Eləcə də fiziki məhdudiyyətli vətəndaşların nəqliyyat problemi həllini tapmalı, metroda, avtobusda, qatar stansiyalarında əlil arabaları ilə təhlükəsiz hərəkəti üçün şərait yaradılmalıdır. Onlara əlil, əngəlli deyə xitab və bu cür yanaşma aradan qalxmalıdır. Çünki bu insanlara əngəl olan fiziki məhdudiyyətləri yox, bizim kəskin baxışlarımız, üzücü sözlərimiz, hündür pilləkənlər və bordyorlar, pandussuz küçələr və sairdir. Cəmiyyəti onlar üçün də yaşanılacaq bir yerə çevirməliyik. Və bu işdə hər kəs maraqlı olmalıdır. Ən azı ona görə ki, heç kim əlillikdən sığortalanmayıb.

*Yazı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 3 Dekabr-Beynəlxalq Əlillər Günü ilə əlaqədar elan etdiyi müsabiqəyə təqdim edilir.*

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 252 (7141) 26 noyabr 2018

# Qürbətdə bir-birinə qənim kəsilən azərbaycanlılar-sosioloq həyəcan təbili çalır

## Əhməd Qəşəmoğlu: "Vəziyyət çox ürəkağrıdandır, ölkəmizin nüfuzu da ciddi zərər görür..."

**Rusiyada azərbaycanlı iş adamı Toğrul Tağıyevin güllələnərək qətlə yetirilməsi gündəmin mövzularından birinə çevrilib. Hadisə ilə bağlı əldə edilən ilkin məlumatlarda iş adamının Şəmkirdən olan həmyerliləri tərəfindən öldürülməsi barədə iddialar bir məsələni yenidən aktuallaşdırıb.**

Xarici ölkələrdə, xüsusilə, Rusiyada yaşayan azərbaycanlıların nə üçün bir-birinə qənim kəsilməsi ciddi müzakirə mövzusuna çevrilib. Bunun səbəbləri barədə ən müxtəlif mövqelər səslənir.

Qeyd edək ki, bu qətldən iki ay öncə Ədalət Partiyasının sədri, sabiq baş prokuror İlyas İsmayılovun oğlu Etimad İsmayılovun Türkiyədə şəriki, azərbaycanlı Gözəl Dəmirov tərəfindən qətli son aylarda bu istiqamətdə müzakirələri intensivləşdirib.

Sosioloq Əhməd Qəşəmoğlu azərbaycanlıların bir-birinə qənim kəsilmələrinin səbəblərindən danışdı: "Min illərdir bizim ən müdrik alimlər, dünyanın müdrik alimləri yazdıqları kitablarda, peyğəmbərlər deyiblər ki, hansı cəmiyyətdəki mənəvi dəyərlər öndə olur, o cəmiyyət get-gedə özü-özünü tənzimləyir. İnsanlarda belə bir illüziya var ki, cəmiyyətdə gedən prosesləri hər hansı bir qanunla, kiminsə göstərişi ilə yüz faiz tənzimləmək olar. Bu aldadıcı düşüncədir. Proseslərə təsir edən amillər var ki, bu insanın imkanı xaricində olan məsələdir. Cəmiyyət də mürəkkəbləşdikcə həmin amillərin təsiri güclənir. Müdrik alimlərimizin dediyini bir daha xatırladıram ki, mənəvi dəyərlərin öncə olduğu cəmiyyətlər özü-özünü tənzimləyir. Burada hansısa qanuna, kiminsə göstərişinə heç bir ehtiyac qalmır. Mənəvi dəyərlərin sıxışdırıldığı və maddi dəyərlərin önə keçdiyi cəmiyyətlərdə günü-gündən gərginlik artır, orada gözlənilməyən proseslər gedir, ən xoşagəlməz kriminal və digər hadisələr baş verir. Təkcə xaricdə yaşayan azərbaycanlıları demək lazım deyil. Mən və mənim yaşda olanlar yaxşı xatırlayırlar ki, ötən əsrin 50-60-cı illərində insanlar bir-birilə çox mehriban idilər, xoş münasibətlər var idi. Ona görə elə idi ki, sovet cəmiyyəti nə qədər mənfi olsa da, mənəvi dəyərlərə daha çox üstünlük verirdi. Çalışırdı ki, mənəvi dəyərləri daim öndə saxlasın. Məhz bu səbəbdən sovet cəmiyyəti özü-özünü tənzimləyirdi. Qanunlar və ya kiminsə göstərişi ilə o cəmiyyət tənzimlənmirdi. Bir-birini öldürənlər açıq şəkildə görünür ki, maddiyyat sferasında olanlardır. Onlar bütün günü maddiyyatın içərisindədirlər. Rusiya və digər yerlərdə belə qətllər səs-küyə səbəb olur və hamımız bilirik. Ölkənin daxilində də belə hadisələr kifayət qədər çox baş verir. Maddi borclar, bir-birini pulla bağlı aldadanlar arasında belə qətllər yaşanır. Burada başqa səbəb axtarmaq lazım deyil. Maddi dəyərlərin mənəvi dəyərləri üstələdiyi açıq görünür. Həmin iş adamları mənəvi dəyərləri maddi dəyərlər kimi inkişaf etdirsələr, belə hadisələr yaşanmaz. Zaman elə gəlib ki, getdikcə mənəvi dəyərlər sıradan çıxmaqdadır. Bir növ maddi dəyərlərin qalib gəldiyini düşünmək olar. Xaricdə vətənpərvərlik, milli mənsubiyyət, xalqının mənafeyini qorumaq hissi güclü olsaydı, o insanlar pul üstündə bir-birilərini öldürməzdilər. Bu proseslər təəssüflər olsun ki, gələcəkdə də gözlənilləndir. Ölkəmizin daxilində də bu məsələlər aktualdır.




Sosioloq kimi haray çəkirəm ki, ölkədə mənəvi dəyərlərin önə keçməsi sahəsində çoxlu işlər görmək lazımdır. Bu istiqamətdə ciddi boşluqlar var. Günü-gündən də bu boşluqlar artır. Mövcud vəziyyət çox ürəkağrıdandır. Ölkəmizin nüfuzuna da ciddi xələl gəlir. Xaricdə yaşayan azərbaycanlılar tanıyıram ki, çox mənəviyyatlı insanlardır. Onlar deyirlər ki, biz burada özümüzdən qabaq Azərbaycanın adını düşünürük, bilirik ki, adımızla ölkəmiz haqqında fikir yaranır. Belə insanlardan heç zaman bu cür qətllər gözləmək olmaz".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Bakıda daha bir mənzil fırıldağı: məşhur futbolçu da dələduzluğun qurbanı olub

## Rahid Əmirquliyevin aldığı iki mənzil başqa şəxslərə də satılıbmış

**Bakıda bir mənzili bir neçə nəfərə sataraq dələduzluq edən və ümumilikdə 58 nəfərə zərər vuran şəxslərin məhkəməsi keçirilib. Məhkəmə prosesində məlum olub ki, zərərçəkmişlər arasında tanınmış futbolçulardan Rahid Əmirquliyev də var.**



Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Çingiz Bağırov və Eynur Xudiyevin cinayət işi üzrə məhkəmə iclası keçirilib. Hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən məhkəmə iclasında zərərçəkmişlər ifadə veriblər.

İlk zərərçəkmiş kimi dindirilən şəxs "Qarabağ"ın tanınmış sabiq futbolçusu, hazırda "Səbayel" klubunda forma geyinən Rahid Əmirquliyev olub. Onun aldığı iki mənzilin başqa şəxslərə satıldığı üzə çıxıb.

R.Əmirquliyev ifadəsində göstərib ki, mənzil almaq üçün bir neçə tikinti şirkəti ilə maraqlanıb. Yasamalda tikilən binadakı mənzillərlə maraqlandığını deyən Əmirquliyev "Bakı" MTK-nın elanları ilə rastlaşdıqdan sonra oradan mənzil almağı qərarlaşdırdığını deyib.

"Həmin MTK-ya getdim. Mənzillərə özüm baxdım. Evləri MTK-nın rəhbəri Emil Məhərrəmovdan almışam. Pulu da ona vermişəm. İndi də ondan şikayətçiyəm", - deyə Əmirquliyev bildirib.

Amma dövlət ittihamçısı xatırladıb ki, Əmirquliyev istintaqda fərqli ifadə verib. Belə ki, o, istintaqdakı ifadəsində evləri alarkən Eynur Xudiyevlə tanış olduğunu, mənzillərə onunla baxdığını, onun vasitəsi ilə pulu verdiyini deyib. Bu xatırlatmadan sonra Rahid Əmirquliyev bildirib ki, hadisənin üzərindən uzun müddət keçdiyi üçün bəzi məqamları dəqiq xatırlamır. Amma o, istintaqda dediklərini də təsdiq edib.

R.Əmirquliyev ifadəsinin davamında qeyd edib ki, iki mənzil də hazır olub: "Mənzillərdə kirayənişinlər var idi. Mən də evi kirayəyə verəcəkdim. Ona görə də dedim ki, kirayədə yaşayanları çıxarmasınlar. İki mənzilin də pulunu tam olaraq ödədim. Sonradan məlum oldu ki, evin bir neçə sahibi var. Evi 550 manata kirayəyə vermişdim. Eynur 3 ay mənə 550 manatdan kirayə pulu vermişdi".

Futbolçunun ifadəsindən məlum olub ki, hazırda həmin mənzillərdə ayrı şəxslər yaşayır. Ona dəymiş ümumi zərər 150 min manatdan çoxdur.

Məhkəmədə daha bir neçə nəfər zərərçəkmiş ifadə verib. Zərərçəkmiş Mətanət Həmidova dindirilən zaman göz yaşlarını saxlaya bilməyib. Söyləyib ki, bu mənzil hadisəsindən sonra övladının nişanı qaytarılıb. 103 min manat pul verdiklərini və aldadıqlarını deyən Mətanət Həmidova çarəsiz durumda olduqlarını söyləyib: "Mən ev almaqdan qorxurdum. Yeni tikililərdən almadıq ki, bizi aldadarlar. Bu ev hazır idi, hətta kirayənişini var idi. Dedik ki, toya qədər təmir edəcəyik. Elə o vaxta qədər də kirayəyə verək. Aylıq 700 manat ödəməli idilər. Sonra məlum oldu ki, ev başqa şəxslərə də satılıb. Oğlumun 29 yaşı var. Biz çox çətin haldayıq. Nə edəcəyimizi bilmirəm. Xahiş edirəm, bizə kömək edin".

Eynur Xudiyev suallara cavabında Mətanət Həmidovanı aldatdığını təsdiqləyib. Bildirib ki, yalandan mənzilin öz adına olduğunu deyərək onu yenidən Mətanət Həmidovaya satıb. Amma Eynur Xudiyev deyib ki, bu işlərin başında Emil Məhərrəmov dursa da o, məsuliyyətə cəlb edilməyib.

Xatırladaq ki, təqsirləndirilənlərdən Çingiz Ç.Bağırov 14 il əvvəl quldurluq ittihamı ilə məhkum olunub. İttiham aktına əsasən, "Bakı" MTK-nın vəzifəli şəxsləri Ç.Bağırovla E.Xudiyev başqasına satılan mənzili təkrarən bir neçə nəfərə sataraq dələduzluq ediblər.

Belə ki, onlar vətəndaş Ruslan Babayevin adına olan Bakı şəhəri, Yasamal rayonu, İ.Qutqaşınlı küçəsində yerləşən 6 nömrəli binanın 6-cı mərtəbəsində yerləşən 68 kvadratmetrlik mənzili 2014-cü il dekabrın 10-da Siyavuş Dadaşova 166 min 600 manata satıblar. Həmin mənzili dekabrın 30-da isə 180 min dollara Ramiz Hüseynova satıblar.

Həmin şəxslər bu işləri şirkətin İdarə Heyətinin sədri Emil Məhərrəmovla birgə həyata keçiriblər. Daha sonra onlar Rəşad Əliyevdən 144 min dollar, Fuad Babayevdən 135 min manat alaraq başqalarına satdıqları mənzili təkrar satıblar.

Bundan başqa, təqsirləndirilən şəxslər Ulduzə Cəbrayılovaya məxsus mənzili Eldar Rüstəmova 170 min manata, İmam Süleymanlıya məxsus mənzili isə Dilşad Məmmədovaya 99 min 500 manata sataraq dələduzluq ediblər.

**❑ İlkin MURADOV, Musavat.com**



# Saatlıda şok olay: kriminal avtoritet güllələndi

**Saatlı rayonunun Azadakənd kəndində kriminal avtoritet kimi tanınan şəxs tapança ilə güllələnərək qətlə yetirilib. Report- un məlumatına görə, 1967-ci il təvəllüdlü kənd sakini Əkbərov Oktay Saleh oğlunun başında 2 güllə yarası olan meyiti ona məxsus BMV markalı avtomobildə aşkar edilib.**

Meyit müayinə olunmaq üçün Sabirabad morquna təhvil verilib. Onun kim tərəfindən qətlə yetirildiyi məlum deyil. Adıçəkilən şəxsin dəfələrlə məhkumluq həyatı yaşadığı qeyd olunur. Faktla bağlı Saatlı Rayon Prokurorluğunda cinayət işi açılıb, araşdırma aparılır.

YENİ MÜSAVAT
N 252 (7141) 26 noyabr 2018

**2016-cı ildə dünya ölkələri prezidentlərinin şəxsi aşpazları Hindistanın paytaxtı Dehlidə keçirilən qurultayda bir araya gəlmişdilər. Qurultay öncəsində Hindistanın baş naziri Narendra Modi özü şəxsən Obamanın baş aşpazı Kristeta Kromfort və Böyük Britaniya şahzadəsi II Yelizavetanın şəxsi aşpazı Mark Flenaqanın da olduğu baş aşpazları salamlamışdı.**



# Prezidentlərin yemək sirləri barədə bilmədiklərimiz

## Biri fast-food sevir, o biri kremli dana əti; aşpazlar sirləri açırlar...

"Dünya liderləri G-20 sammitlərində onsuz da tez-tez bir araya gəlir, görüşürlər. Mən də qərar verdim ki, baş aşpazlar arasında niyə G20 zirvəsi yaratmayaq?!" - Narendra Modi demişdi.

Bu isə bizə prezidentlərin yemək zövqü barədə sualları cavablamaq üçün bir fürsət oldu. Bəli, onlar nə yeyib-içirlər, yemək zövqləri nədir? Hansı aşpazların xidmətindən istifadə edirlər?

**Tramp McDonalds dəlisi, Obama piroq həvəskarı...**

Öncə ABŞ prezidentlərindən başlayaq. Prezident Donald Tramp həqiqi amerikan stilini sevir: o, fast-food həvəskarıdır. Faktiki olaraq, o, Ağ Evdəki mətbəx işçilərindən yeməkləri "McDonald'sdakı kimi hazırlamağı" tapşırıb. Ən çox sevdiyi isə qızardılmış almalı piroq və burgerlərdir. Amma burgerlər prezidentin xoşuna gəlməyib. Bunun da bir səbəbi odur ki, Ağ Evdə istifadə edilən məhsullar çox keyfiyyətlidir və restoranlar şəbəkəsindəkinin dadını vermir.

Corc Buş (böyük) quru, həddən artıq qızardılmış balıqları yemək zorunda olub. Buna səbəb isə həyat yoldaşı Barbaranın bunu belə istəməsi idi. 25 il boyunca Ağ Evdə çalışmış aşpaz Roland Mesnye deyib ki, Barbara hər dəfə az qala, qışqırıqla balığı onun istədiyi kimi, yeməyə yararlı olmayan vəziyyətdə hazırlamağı tələb edirdi.

Hillari Klinton tərəfindən tutulmuş, daha sonra isə Lora Buş tərəfindən işdən çıxarılmış aşpaz Uolter Şayb danışır ki, kiçik Corc Buşa badam yağı və balla hazırlanmış adi sendviçlər çox xoş gəlirdi. Onun sözlərinə görə, Buş tez-tez mətbəxə gəlib, ondan nahara hansı yemək olduğunu soruşurmuş. Şayb hər zaman əlinin altında prezidentin ən sevimli buterbrodlarını hazır saxlayırdı.

Ronald Reyqana isə şokoladlı yeməyin zövqünü yaşamaq üçün birinci ledinin şəhərdən çıxmasını gözləmək lazım olurmuş. Ronaldın sevimli yeməyi steyk, pendirli makaron və desrt üçün şokoladlı muss idi. "O, çox xoşbəxt adam idi" - şef aşpaz Mesnye xatırlayır.

Franklin Ruzvelt qızardılmış pendir, omlet, balıq supu, eləcə də meyvəli keks yeməyi sevirmiş. Ağ Evin aşpazı Henroetta Nesbittin sözlərinə görə, Ruzvelt qızardılmış, suyu axan yeməkləri də çox sevirmiş.

Kasss özü qidalanma siyasəti sahəsində məsləhətçi idi və o, Mişel Obamaya Ağ Evin yaxınlığında birinci böyük bağça qurmağa kömək edib. Amma eyni zamanda, Barak hakimiyyəti dönəmində mətbəxə də nəzarət edib. O, eyni zamanda, prezidentlə birinci ledinin yemək zövqünü balanslaşdırmalı, onların hər ikisini məmnun edən menyunu ortaya çıxarmalı idi. "Biz Ağ Evə ilk dəfə düşəndə gördük ki, hər tərəfdə piroq var. Buna görə də birinci ledi şirniyyatları ancaq istirahət günlərində icazə verdi".

**Fransanın eks-prezidentlərinin əcaib yemək zövqü**

Fransa prezidentlərinin baş aşbazı olan Bernard Vossion Yelisey Sarayında başına gələnlərdən danışıb. 40 ildir fransız prezidentləri yedizdirən aşpaz "Le Parisien" qəzetinə onların yemək menülərindən danışıb. Vossion verdiyi açıqlamasında keçmiş prezident Fransua Mitteranın dəniz məhsullarını sevdiyini deyib: "Jak Şirak ilbiz və kələm turşusu sevirdi. Bunları da pivəsiz yeməzdi. Nikola Sarkozi isə pendiri menyudan çıxarmışdı, amma şokoladı sevirdi".

Sarkozinin sevimli yeməkləri makaron və ənginar, qara trüfel olub. Sarkozi yeməklə çaxır içməyi xoşlayırmış. O, şimali koreyalı həmkarından fərqli olaraq pendiri heç sevməyib. Hakimiyyəti dönəmində Sarkozi Yelisey Sarayının yaxınlığında yerləşən Le Bristol adlı restoranda yemək yeyirmiş. Həmin vaxt onun sevimli yeməyinin qiyməti 82 avro olub. Amma Sarkozi Kim Çen İndən fərqli olaraq, pendirə nifrət edir.

Baş aşpaz sabiq prezident Fransua Ollandın xüsusi yemək menyusunun olmadığını deyib: "Heç bir yeməyi ayırmır. Toyuq, dana, göyərti, pendir və s. nə gəldi yeyir".

Ən fərqli yemək zövqü olan Fransanın keçmiş prezidenti Fransua Mitterandır. O, delikatesə üstünlük verib, mətbəxində yeni dadların kəşfini tələb edirmiş.

**Merkel yeməklərini özü bişirir - ancaq bazar günü**

Rusiya prezidenti Vladimir Putinin yemək zövqü barədə məlumat bir qədər azdır. Bir dəfə özü müsahibəsində bildirmişdi ki, yemək məsələsində ciddi kaprizləri yoxdur. "Əgər ət və balıq arasında seçim varsa, balığa üstünlük verirəm. Ətlərdən isə qoyun ətini seçirəm. Şirniyyata qarşı, ümumiyyətlə, laqeydəm, təbii ki, dondurmanı nəzərə almasaq. Nə vaxtsa harasa səfər edirəmsə, böyük məmnuniyyətlə, yerli mətbəxin dadına baxıram. Çoxdan bəri yaşıl çaya öyrəşmişəm". Bunu da o, özü müsahibəsində deyib.

2012-ci ildə Putin NTV jurnalistləri ilə səhər yeməyi yeyəndə məlum olmuşdu ki, Rusiya prezidenti səhərlər kəsmiklə bal yeyir, bildirçin yumurtası içir. Bundan başqa, Putin xüsusi reseptlə hazırlanmış kokteyl içir.

2010-cu ildə Kremlin baş aşpazı Anatoli Qalkin Putinin içkilərdən şərab və pivəyə üstünlük verdiyini deyib. Bundan başqa, Qalkin rəsmi tədbirlərdə təqdim edilən kokteylin reseptini də açıqlayıb. Onun tərkibində buz, limon suyu, sirop və 50 qram şampan olub. Aşpazın sözlərinə görə, belə içki "istini inanılmaz dərəcədə azaldır".

Almaniya kansleri Angela Merkeldən danışanda isə yemək xüsusi olaraq dəyər qazanır. Çünki o, yemək zövqü barədə danışmağı çox sevir. Bundan başqa, boş vaxtlarında özü də yemək bişirir. Onun ən yaxşı bacardığı yeməklər arasında kartof şorbası, balıq yeməkləri və şnisel (kotletə oxşar xörək) yer alır. Milad bayramında isə kartof salatı hazırlayıb, qaz qızardır. Kanslerin sevimli məhsulları siyahısında kələmli donuz kolbasası da var. Merkelin şəxsi aşpazının sözlərinə görə, o, pendiri çox sevir və siyasətçilərin çoxu kimi çaxır içir.

Ağ Evin mətbəxində şef aşpaza 7 nəfər kulinar yardım edir. Müqayisə üçün deyək ki, Kremlin mətbəxində 20 kulinar çalışır. Şef aşpazdan başqa, qalanların hamısı rusdur. Kiçik Corc Buş qurman kimi tanınmasa da, hər zaman bifşteks və texas-meksikan mətbəxini tərcih edirdi. Obamanın həyat yoldaşı isə sağlam qidalanma prinsipinə önəm verir, Ağ Evin həyətində onun xüsusi bostanı var. Orada təzə tərəvəz və meyvələr yetişdirilib.

Dünyaca məşhur aşpaz Kristet Bernand deyib ki, ümumiyyətlə, prezidentlərlə işləmək çox çətindir. Bu, daimi stressdə olmaq və prezidenti bir qayda olaraq təəccübləndirmək öhdəliyi deməkdir: "Məsələn, Nikola Sarkozi hər zaman yeməklərin təqdim olunma formasına önəm verirdi. Masaya birinci nəyi təqdim etməyi özü tapşırırdı".

Kanadanın baş nazirinin şef aşpazı isə işinin gerçək fanatıdır. Onun adı Timoti Vasilkodur. Əslən ukraynalıdır və təkcə işdə yox, evdə də yemək hazırlamağı sevir: "Bu, mənim ehtirasımdır. Mən evdə də öz sevimli ailəm üçün yemək hazırlayıram və bundan zövq alıram".

Dmitri Medvedyevin fransız aşpazı Jerom Riqo isə iş xaricində yemək bişirməyi tərcih etmir.

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın 25 illik aşpazı Cüneyt Asan onun yemək seçimində kaprizli olmadığını deyir: "Yemək seçimində heç kaprizi yoxdur. Onsuz da həkim nəzarəti ilə qidalanır. Sağlam olması üçün onun yeməklərinə diqqət edilməlidir. Bütün yeməkləri də həkim nəzarəti altında hazırlanır. Biz də onun yeməklərinə, menyusuna çox diqqət edirik. Amma əsasən, ət yeməyini sevir. Hələ baş nazir olduğu vaxtdan ətlə bağlı menyunu mən hazırlayıram. Onun özünün də çox zaman xüsusi sifarişləri olur. Əsasən bizim hazırladığımız sosiskaları çox sevir. Onun sevmədiyi yeməyi bilmirəm, amma ən çox antrikotu və quzu ətini sevir. Bu aralar özünü bir az narahat hiss edirdi. Lakin indi sağlamlığı yerindədir, heç bir problem yoxdur. Amma təbii ki, həkim nəzarəti altında pəhriz saxlayır. Hər şey yeyə bilməz. Ona görə də nə vaxt nə yeməyini həkimlər məsləhət görürlər".

**Elçibəyin aşpazı da danışıb**

Hamıdan danışıb, milli aşpazlardan yan keçmək olmaz. "Bəyin yanında ilk işə başladığım gün mənə dedi ki, dəftər alıb qeydlərimi aparım. Mən də gedib qeyd dəftəri aldım. Amma hər günü yaza bilmirdim. Yadımdan çıxırdı. 1 ay keçmişdi. Bəy məndən soruşdu ki, yazırsanmı? Pis olmasın deyə dedim ki, hə. O deyirdi ki, vaxt gələcək həmin qeydlər lazımlı olacaq. İndi fikirləşirəm ki, davamlı qeydlər aparsaydım, indi bir kitab yazmaq olardı. Elçibəy bu dünyada ancaq iztirab çəkib. Onun yanında olan bir şəxs kimi mən bütün bunları görmüşəm".

Bu sözləri Əbülfəz Elçibəyin prezidentliyi dövründə onun aşpazı olmuş Hənifi Mirzəyev illər öncə "Yeni Müsavat"a müsahibəsində deyib. O, müsahibəsində bildirib ki, Əbülfəz Elçibəyin aşpazı olmaq təklifi gözlənilməz olub: "Mən kollecdə oxuyanda Bəygilə qonaq getmişdim. Onun xanımı mənim bibim qızıdır. Ata tərəfdən də qohumluğumuz var. Qonaq getdiyim gün evdən çıxanda Bəy xanıma dedi ki, uşağa cibxərci ver, əliboş qaytarma. O vaxta qədər bir neçə dəfə evində olmuşdum. Amma yemək zövqünü bilmirdim".

Hənifi bəy öncə eks-prezidentin "qara siyahısındakı" yemək barədə bunları danışıb: "Bəy plovu heç sevməzdi. Ümumiyyətlə, az yeyən adam idi. Daha çox ağartı yeməklər, xəmir xörəkləri yeyərdi. Dolmaya çox meyilli idi. Meyvələrdən ən çox əriyi sevərdi. Çox vaxt soba yeməkləri hazırlayardım".

Müsahibimiz danışır ki, Elçibəyi yemək məsələsində kaprizli adlandırmaq olmazdı. Hətta eks -prezident səhər yeməklərindən də imtina edirmiş: "Səhərlər ancaq 1 stəkan şirə, ya da çay içərdi. Günortalar iqamətgaha gələndə yeməyini administrasiyanın mətbəxində bişirib gətirərdim. O da nə olsa yeyərdi. Heç vaxt mənim bişirdiyimə "bəyənmirəm" deyə etiraz etməzdi".

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 252 (7141) 26 noyabr 2018

# Ancaq qadınların yaşadığı qəsəbə

Braziliyanın cənub-şərqində Noiva do Kordeiro qəsəbəsində yalnız qadınlar yaşayır. Qəsəbədə 600-dən çox qadın var. Onların çoxu 35 yaşdan yuxarıdır. Qadınlardan bəziləri evli olsa da, həyat yoldaşlarının özləri ilə yaşamasına icazə vermirlər. Bu səbəbdən qəsəbədəki qadınlar ərə getməmişdən əvvəl sevgililəri qarşısında şərt qoyurlar ki, onlar bu qəsəbədə tək yaşayacaqlar. Qəsəbədə olan oğlan uşaqları da 18 yaşdan sonra buradan çıxarılır. Buranın qadınları həyat yoldaşlarına yalnız həftə sonlarında qəsəbəyə girməyə icazə verirlər. Noiva do Kordeiro qəsəbəsinin sakinləri hər bir işi özləri görür. Qadınlar bu qəsəbəni çox sevdiklərini və evləndən sonra da buradan çıxmaq istəmədiklərini deyirlər. Qəsəbə sakinlərinin bir şüarı var: "Həyat kişilər olmadan çox gözəldir!"



## Beyin əməliyyatında balıqlardan danışdı



Pasiyent əməliyyat zamanı həkimlərlə danışıb. Beynindəki xərçəng şişinin götürülməsi əməliyyatı zamanı 19 yaşlı İqa Yasika adlı qız tibb dünyasını şoka salıb.

Hadisə Polşada baş verib. Xəstə həkimlərin manipulyasiyası bitmədən öncə oyanıbmış. Cərrahlar bildirib ki, bu durumda danışmaq pasiyentə hər hansı təhlükə yaratmır. Professor David Laricin sözlərinə görə, əməliyyat olduqca uğurlu keçib. Xəstə isə əməliyyatı aparan həkimlərlə öz sevimli pişiklərindən danışıb. Amma həkim bildirib ki, bununla yanaşı, gənc qadın nəyisə görəcək və duyacaq durumda deyildi. Ekspertlər hesab edir ki, beyindəki hansısa manipulyasiya nəticəsində anesteziya effekt verməyib və xəstə əməliyyat zamanı oyaq olub.

## İtlərin mədəsinə 3 kilo narkotik yerləşdirdilər

Peru polisi Meksikadan gələn bir nəfəri narkotik alverinə görə həbs edib. Amma işin ilginc tərəfi bu adamın 3 kiloqram ağırlığındakı narkotik maddəni iki itin mədəsində gizlətməsidir. 22 yaşlı meksikalı Cüzeppe Tombolanı 4 dekabrda Lima mehmanxanasında həbs ediblər. Məhz həmin mehmanxanada Cüzeppe itlər üzərində əməliyyat keçirərək, onların mədəsinə 11 paket narkotik yerləşdirib. Daha sonra itlərin mədəsindən narkotiki veterinarlar çıxarıblar.

Paytaxt polisi isə deyib ki, daha öncə analoji halla qarşılaşmayıblar. Əməliyyatdan sonra itlərin səhhətində problem yaranıb, onlardan biri ölüb. 2013-cü ilin yayından etibarən Peru narkotik vasitələrin daşınmasına görə birinci yeri tutan şəhərdir.

## Bir gecədə həm tanış oldu, həm sevgili oldu, həm də döydü

Nyu-York sakini olan bir qız onu döyən adamdan xilas olmağı bacarıb. Bu barədə "New-York Daily News" nəşri xəbər verib. Polis bu şəxsin fotolarını yayıb. 21 yaşlı Nikolas Şamar xalasının evinə qonaq gəlib. O, xalası və dostu ilə birlikdə barlarda gəziblər. Sonra isə bir qıza rast gələrək tanış olublar, dördlükdə gəzintiyə davam ediblər. Səhərə yaxın gənc öz xalası ilə dalaşmağa başlayıb. Xalası isə sevgilisi ilə birgə evi tərk edib. Bundan qəzəblənən gənc bu zaman yeni tanış olub evə gətirdiyi qızı döyməyə başlayıb. Bir neçə dəfə zərbələrdən özünü itirən qız növbəti dəfə gözünü açanda gənc onu bıçaqla təhdid edib. Bu zaman gəncə gözlənilməz bir zərbə endirərək, evdən qaçmağa nail olub. Polisin yaydığı fotolarda isə gəncin zorakılıq etmək üçün evdən çıxarkən çəkilmiş görüntüləri yer alıb. Onun tezliklə həbs olunacağı gözlənilir.



## Üzdüyü yerdə başına kişi düşdü

Amerikanın Montana ştatındakı Klark Fork çayında ilginc olay baş verib. Lenta.ru xəbər verir ki, Endi Hill adlı qadın çayda, içi hava ilə doldurulmuş döşəkdə üzdüyü zaman körpüdən üstünə bir kişi düşüb. Nəticədə Hillin hər iki ayağında sınıqlar, habelə bədəninin digər yerlərində zədələr yaranıb.

Qadının dediyinə görə, üstünə düşən kişi tez-tez üzr istəyərək, onu sahilə doğru aparıb. Endini ən yaxın xəstəxanaya aparıblar və yaxın müddətdə onun əlil arabasında hərəkət edəcəyi gözlənilir.

Endi bildirib ki, bu olayın mənfi tərəfləri ilə yanaşı, gülməli cəhətləri də var. Hadisədən zərər çəkməsi ilə yanaşı, qadın bundan sonra hamıya danışa biləcəyi ilginc, gülməli bir qəzanın qurbanı olub. Amma körpüdən hoppanan kişinin bunu niyə etdiyi bilinmir. Onu məhkəmə perspektivi gözləyir.

## Qoroskop




**QOÇ** - "Özüm hər şeyi bilirəm" fikrinə aludə olmaqla ətrafda özünüzə qarşı ikrah oyada bilərsiniz. Bir qədər xoşrəftar olun. Təmasda olduğunuz şəxslərlə aranızda nəzakət tellərini artırın.

**BUĞA** - Öhdənizdə olan bu təqvimdən hansısa uğur gözləməyiniz əbəsdir. Ən azı ona görə ki, həftənin ən passiv gününü yaşayacaqsınız. Odur ki, başınızı adi işlərlə qatmağa çalışın.

**ƏKİZLƏR** - Əməkdaşlıq zəminində uğurlu gün olsa da, təcrübəsizlik göstərib müvəffəqiyyətdən uzaq ola bilərsiniz. Odur ki, lazımi adamlardan məsləhət almağı unutmayın. Axşamı öz evinizdə keçirin.

**XƏRÇƏNG** - Gün ərzində Ayın bürcünüzdə olması fikirlərinizdə çaşqınlıq yarada bilər. Bunu anladığınız təqdirdə bütün ciddi işləri təxirə salmalısınız. Qida rejiminizə fikir verin. Uzaq yola çıxmayın.

**ŞİR** - Fəaliyyət göstərdiyiniz müəssisələrdə təmkininizi qorumağa çalışın. Hətta haqsız addımların şahidi olsanız belə, cavab tədbirlərini sonraya saxlayın. Mübahisə sizə uğur gətirməyəcək.

**QIZ** - Kənar təsirlərə məruz qalacağınızı bildirən Göy qübbəsi özünüzü ələ almağı, şayiələrə uymamağı məsləhət görür. Zəif insanların inamından sui-istifadə etməyiniz böyük günahdır. Axşam qonaq gedin.

**TƏRƏZİ** - Təşəbbüskarlığı ələ ala bilsəniz, heç bir məyusluqla üzləşməyəcəksiniz. Özünüzü qürurlu aparın. Yeni əlaqələr karyeranızda böyük təkan yarada bilər. Xırdaçılığa meyl etməyin.

**ƏQRƏB** - Risk etmək olmaz. Əks təqdirdə bütün proseslər əleyhinizə işləyəcək. Xüsusən də pul və sənədləşdirmə məsələlərində ayıq-sayıqlığınızı artırın. Yalnız adi işlə məşğul olun.

**OXATAN** - Planetiniz olan Yupiterin aktivlik nöqtəsinə çatması sizi bir neçə uğurlu hadisə ilə rastlaşdıracaq. Darıxdığınız adamlardan bir neçəsini görəcək, təzə xəbərlər eşidəcəksiniz.

**OĞLAQ** - Həddindən ziyadə uğurlu gündür. Göy qübbəsi qarşınıza bir neçə sürpriz çıxaracaq. Buna hazır olun. İştirakçısı olduğunuz bütün sövdələşmələr əhəmiyyətli olacaq. Axşam qonaqlıq gözlənilir.

**SUTÖKƏN** - Bu gün hansısa perspektivli iş görəcəyiniz inandırıcı deyil. Astroloji göstəricilər yalnız gözləmə mövqeyində durmağınızı məsləhət görür. Saat 17-19 arası hər bir məsələdə ehtiyatlı olun.

**BALIQLAR** - Təzadlı gün olsa da, hansısa uğursuzluqla qarşılaşmayacaqsınız. Çünki psixoloji dəyanətiniz buna imkan verməyəcək. Rəqiblərinizə qarşı üzüyumşaqlılıq nümayiş etdirməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Kök qadınlar qocalmadan ölür



Lenta.ru saytının xəbərinə görə, kök qadınların qocalmadan ölmək riski nərmə-nazik qadınlarla müqayisədə düz 2 dəfə artıqdır. Eksperiment zamanı alimlər yaşı 20-80 arasında olan təxminən 5000 qadını müayinə edib. Məlum olub ki, kök qadınların 60 yaşadək yaşamaq şansı daha azdır. Əgər artıq çəki hələ gənc yaşlardan yığılıbsa, bu zaman risk daha da yüksəkdir. Alimlər bildirir ki, bütün ömrü boyu artıq çəkidən əziyyət çəkən xanımlar digərləri ilə müqayisədə təxminən 8 il az yaşayır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100